QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 096 (5084) **28 may** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# İlham Əliyev: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir"



Səh 4

8

**28 May - Azərbaycan xalqının tarixinin şərəfli səhifələrindən biridir**



11

**Siqne Store: "Azərbaycan vətəndaşlığını qəbul edirəm"**



9

**Barak Obama dünyanı nüvə silahından imtina etməyə çağırıb**



# Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olub

*Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib*



Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib. Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoydu. Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib. 98 il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən - "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib. XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində sürətli inkişafını uğurla davam etdirir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonlarında yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

# Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında səmərəli əməkdaşlıq mövcuddur

*Azərbaycan Prezidenti İlham Əliyev ATƏT Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də ATƏT Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Viqenini qəbul edib. ATƏT Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Viqenin Prezident İlham Əliyevə Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə təbriklərini çatdırdı və təşkil olunmuş rəsmi qəbulda iştirak etdiyini vurğulayaraq dövlətimizin başçısının tədbirdə söylədiyi nitqin əhəmiyyətini qeyd etdi.***

O, tədbir iştirakçılarının Prezident İlham Əliyevin nitqini böyük maraqla izlədiklərini dedi. Kristian Viqenin Prezident İlham Əliyevin atdığı addımların Azərbaycanın beynəlxalq arenada böyük nüfuz qazanmasına xidmət etdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq məsələlərindən danışdı. Söhbət zamanı Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq əlaqələri müzakirə edildi, bu əməkdaşlığın hazırkı vəziyyətinin məmnunluq doğurduğu bildirildi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti, son danışıqlar prosesi və münaqişənin həllinin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Fransa şəhərləri ilə Azərbaycan şəhərləri arasında çox sıx əlaqələr mövcuddur

*Azərbaycan Prezidenti İlham Əliyev Fransanın Kann şəhərinin merini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Fransanın Kann şəhərinin meri Devid Lisnardı qəbul edib. Fransa şəhərləri ilə Azərbaycan şəhərləri arasında çox sıx əlaqələrin mövcud olduğunu vurğulayan Prezident İlham Əliyev Fransanın və Azərbaycanın 10-dan artıq şəhərinin qardaşlaşdığını və bu şəhərlər arasında yaxşı təmasların yaradıldığını məmnunluqla qeyd etdi. Ölkələrimiz arasında əlaqələrin də yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı regional əməkdaşlığın xüsusi əhəmiyyət daşıdığını dedi. Kannın Fransanın gözəl memarlığa və infrastruktura malik şəhərlərindən biri olduğunu qeyd edən Prezident İlham Əliyev qonağın ölkəmizdə də maraqlı yerlərlə tanış olacağını əminliklə qeyd etdi. Dövlətimizin başçısı Fransanın Kann şəhərinin meri Devid Lisnardın ölkəmizlə və şəhərimizlə yaxından tanış olması üçün səfərin yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirdi. Kann şəhərinin meri Devid Lisnard bildirdi ki, Azərbaycana səfərinin məqsədi Fransanın Kann şəhəri ilə Qəbələ şəhəri arasında əməkdaşlığı genişləndirməkdir. Devid Lisnard Kannın kiçik bir şəhər olduğunu, lakin dünyada tanındığını vurğuladı. O, Azərbaycanın öz inkişafını möhkəm zəmində formalaşdırmasının və öz mədəniyyətini dünyada təşviq etməsinin əhəmiyyətini qeyd etdi. Görüşdə mədəniyyət və təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi üçün böyük potensial var



Mayın 27-də Bakıda İqtisadiyyat Nazirliyi ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda institusional quruculuq əməliyyatlarına dəstək" (SIBA) layihəsinin birgə təşkilatçılığı ilə "Azərbaycanda institusional quruculuq" mövzusunda konfrans keçirilir.

İqtisadiyyat nazirinin müavini Sahil Babayev Azərbaycan və Avropa İttifaqı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini və tərəfdaşlıq əlaqələrinin müxtəlif sahələrdə daha da möhkəmləndirilməsi üçün imkanların olduğunu deyib. Nazir müavini qeyd edib ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ötən il Avropa İttifaqı ilə ticarət dövriyyəsinin həcminin ümumi ticarətdəki payı 47 faiz, 2016-cı ilin birinci rübündə isə 43 faiz olub. Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Malena Mard Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün mövcud olan qarşılıqlı marağın əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi üçün böyük potensial var.

# ABŞ Prezidenti Barak Obama Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib



ABŞ Prezidenti Barak Obama Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 98-ci ildönümü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevi və xalqımızı təbrik edib. Birləşmiş Ştatların Prezidenti, həmçinin qarşıdan gələn əlamətdar hadisə - Azərbaycanın müstəqilliyinin yenidən bərpa olunmasının 25 illiyi münasibətilə təbriklərini çatdırıb. Təbrik məktubunda deyilir ki, Azərbaycan son 25 ildə, xüsusilə, Avropanın enerji şaxələndirilməsini və təhlükəsizliyini dəstəkləyən enerji lideri kimi böyük uğur qazanıb. "Biz terrorçuluğa qarşı mübarizə səyləri də daxil olmaqla, Azərbaycanın təhlükəsizlik üzrə əməkdaşlığını yüksək qiymətləndirir və Azərbaycan ilə birlikdə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək Missiyasında xidmət etməkdən şərəf duyuruq. Azərbaycan bütün vətəndaşları üçün təhlükəsizlik, firavanlıq və ifadə azadlığını daha da möhkəmləndirdikcə biz ona yardım etməyə hazırıq. Biz, həmçinin ölkənizin və qonşularının əmin-amanlıq və sabitlik şəraitində yaşamaları üçün Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Azərbaycan ilə işləməyə davam edəcəyik", - deyə təbrik məktubunda qeyd edilir. Prezident Barak Obama vurğulayır ki, Azərbaycanın və Birləşmiş Ştatların xalqları sıx əlaqələrə malikdir. Biz mədəni, siyasi və iqtisadi əlaqələrimizin daha da möhkəmləndirilməsini arzu edirik.

# Rəsmi xronika

Prezident İlham Əliyev dövlət mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb. SİA-nın xəbərinə görə, mükafatlar Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən verilib.

X X X

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə dünyanın bir sıra dövlət və hökumət başçıları Prezident İlham Əliyevə təbrik məktubu göndəriblər. Yaponiyanın İmperatoru Akihito Prezident İlham Əliyevə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi, Zati-alinizə xoşbəxtlik və xalqınıza rifah arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram".

X X X

İsveçrə Konfederasiyasının Prezidenti Yohan Şnayder-Amman Prezident İlham Əliyevə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə İsveçrə Konfederasiyası Federal Şurası adından səmimi təbriklərimizi çatdırır, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik diləyir, ölkənizə inkişaf, əmin-amanlıq və rifah arzu edirik. Əminəm ki, ölkələrimiz arasındakı qarşılıqlı hörmət və dostluq əlaqələri qarşıdakı illərdə daha da möhkəmlənəcək. Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin".

X X X

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Prezident İlham Əliyevə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına bu əlamətdar gün münasibətilə rifah və tərəqqi arzu edirəm. Bu xoş fürsətdən istifadə edib, Sizə böyük hörmət və ehtiramımı bildirirəm".

X X X

İsrailin Baş naziri Benyamin Netanyahu Prezident İlham Əliyevə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə İsrail xalqı və hökuməti adından mənim səmimi təbriklərimi qəbul edin. İsrail Azərbaycan ilə əlaqələrinə yüksək dəyər verir. Diplomatik əlaqələrin yaranmasının 24 ili ərzində biz həqiqi dostluq və qarşılıqlı maraqlara əsaslanan güclü, strateji tərəfdaşlıq münasibətləri yaratmışıq. Sizin rəhbərliyiniz ilə ölkələrimiz arasında münasibətlər yeni səviyyəyə yüksəlib. Əminəm ki, ölkələrimizin əməkdaşlıq əlaqələri daha da genişlənəcək. Ümidvaram ki, razılaşdığımız kimi, bu il ərzində Azərbaycanda görüşə biləcəyik. Zati-aliləri, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 98-ci ildönümü müstəqilliyiniz bərpa ediləndən bəri ölkənizin qazandığı nailiyyətlərin qeyd edilməsi üçün yaxşı imkandır. Bu əlamətdar gündə mən ölkələrimiz arasındakı dostluğa sadiqliyimi bir daha təsdiq edirəm. Sizə, ailənizə və xalqınıza rifah, uğur və davamlı inkişaf diləyirəm".

# İlham Əliyev: “Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir”





Mayın 27-də “Buta” sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib. Dövlətimizin başçısı tədbirdə nitq söylədi. Azərbaycan Prezidenti İlham Əliyev öz nitqində bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir:

“Hörmətli xanımlar və cənablar. Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Azərbaycan daim inkişaf etsin, xalqımız rahat yaşasın, ölkəmizdə sabitlik, təhlükəsizlik daim möhkəmlənsin.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir. Ona görə ki, ilk dəfə idi müsəlman aləmində demokratik respublika yaranmışdı. Bu respublikanı Azərbaycan xalqı, onun qabaqcıl nümayəndələri yaratmışlar. Biz təbii olaraq bununla fəxr edirik. Məhz bizdən sonra digər müsəlman ölkələrində demokratik respublikalar yaranmağa başlamışdır. Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə çox böyük hörmətlə yanaşıb və yanaşır, onların xatirəsini qəlbində yaşadır. Əfsuslar ki, Azərbaycan Demokratik Respublikasının ömrü uzun olmadı. Respublika iki ildən sonra süqut etdi. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha da çətindir.

Xalqımız üçün yeni dövr - sovet dövrü başlamışdır. Əlbəttə, biz müstəqil deyildik, özümüz müstəqil siyasət apara bilmirdik. Ancaq bununla bərabər, o dövrdə də müsbət məqamlar az deyildi. İlk növbədə, təhsillə bağlı məsələlər öz həllini tapdı və bu gün Azərbaycanda savadlılığın səviyyəsi təxminən 100 faizdir. Elmin, mədəniyyətin, incəsənətin, kənd təsərrüfatının, sənayenin inkişafı sovet dövründə təmin olunmuşdur. Xüsusilə, o dövrdə ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik edirdi. Əgər Sovet Azərbaycanının sosial-iqtisadi statistikasına nəzər salsaq, bunu görmək mümkündür ki, 1970-ci illərə qədər Azərbaycan ən geridə qalmış yerlərdə idi. Ancaq Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan inkişaf etməyə başladı və qısa müddət ərzində donor respublikaya çevrildi. Sovet İttifaqında Rusiya Federasiyasından sonra iki respublika - Belarus və Azərbaycan özünü təmin edirdi və ümumittifaq xəzinəsinə öz maddi töhfəsini verirdi.

Bu, böyük nailiyyət idi. Çünki Azərbaycan o illərdə inkişaf etmiş, sənaye müəssisələri yaradılmış, kənd təsərrüfatı sürətlə inkişaf etmiş, xalqımız daha da yaxşı yaşamağa başlamışdır. Hesab edirəm ki, məhz buna görə, məhz o illərdə görülən işlərə və Heydər Əliyevə xalq tərəfindən olan hörmətə görə ən çətin anlarda xalqımız yenə də Ulu Öndərə üz tutdu, 1993-cü ildə onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini göstərdi. Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsə idi, müstəqilliyimizin taleyi çox faciəli ola bilərdi.”

Prezident İlham Əliyev bildirib ki, 1991-ci ildə bərpa edilən müstəqillik böyük tarixi şans, böyük sərvət idi. Ancaq əfsuslar olsun ki, o illərdə ölkəmizə rəhbərlik edən şəxslər bu şansdan istifadə edə bilmədilər:

“ Ölkəmizi xaos bürümüşdü. Daxili çəkişmələr, anarxiya, silahlı quldur dəstələri meydan oxuyurdu. Özbaşınalıq, iqtisadi tənəzzül, hərbi böhran və bütün bu xoşagəlməz hallar nəticədə vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Bu dəhşətli vətəndaş müharibəsində qardaş qanı axıdıldı. Belə bir vəziyyətdən istifadə edən erməni millətçiləri, Ermənistan işğalçıları torpaqlarımızı işğal etdilər. 1992-ci ildə Şuşa və Laçın, 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi əlaqə yarandı. Həmin ağır və faciəli şəraitdə xalq Heydər Əliyevə müraciət etdi. O, bu müraciətə öz dəstəyini verdi, hakimiyyətə gəldi və ondan sonra Azərbaycan inkişaf etməyə başladı. Təxminən üç il vaxt lazım idi ki, iqtisadi sabitləşmə təmin edilsin. Biz bunu statistikadan görürük ki, məhz 1996-cı ildə iqtisadi sabitləşmə əldə edilmiş, ondan sonra isə Azərbaycan iqtisadiyyatı inkişaf etməyə başlamışdır. Siyasi sistem yaradıldı, 1995-ci ildə Konstitusiya qəbul olundu, Azərbaycan xarici investorları ölkəmizə dəvət etdi və inkişaf dövrü başladı. 1993-2003-cü illər inkişaf, sabitlik illəri oldu. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu, milli ideologiya - azərbaycançılıq ideologiyası xalq tərəfindən dəstəkləndi. Bu gün biz o illərdə həyata keçirilən işlərin bəhrəsini görürük, əlbəttə ki, Azərbaycanı bu möhkəm təməl üzərində uğurla, inamla irəliyə aparırıq.

2003-cü ildən bu günə qədər Azərbaycan Heydər Əliyev yolu ilə gedir, bu siyasətə sadiqdir. Əlbəttə dünya dəyişir, bölgə dəyişir. Biz indi tam fərqli geosiyasi vəziyyətdə yaşayırıq. Ancaq biz həm xarici, həm daxili siyasətlə bağlı prinsipial seçimimizə sadiqik. Azərbaycanda xalq vahid amal uğrunda çalışır, vahid amal ətrafında birləşib ki, ölkəmizi daha da gücləndirək, xalqımızın rifah halını yüksəldək, Azərbaycanın dünyadakı nüfuzu daha da artsın və biz dayanıqlı, uzunmüddətli inkişaf strategiyamızı icra edə bilək. Buna nail olmaq üçün əlbəttə ki, qarşımızda önəmli vəzifələr durur. Son illər ərzində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapır. 2003-cü ildən bu günə qədər görülən işlər haqqında çox danışmaq istəməzdim. Hər şey göz qabağındadır. Azərbaycanın beynəlxalq nüfuzu artıb, biz 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq, milli iqtisadiyyat üç dəfədən çox artıb, maaşlar, pensiyalar dəfələrlə artırılıb. Azərbaycan çox böyük əhəmiyyət kəsb edən transmilli, enerji və nəqliyyat layihələrini uğurla icra edib. Azərbaycan qaz, elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir. Biz enerji, xüsusilə neft-qaz layihələrinin icrasında liderlik keyfiyyətlərimizi bütün dünyaya nümayiş etdiririk. Biz indi regional nəqliyyat mərkəzinə çevrilirik. Azərbaycanda bütün dinlərin, bütün millətlərin nümayəndələri bir ailə kimi rahat yaşayır. Yəni, bu siyahını uzatmaq olar. Mən görülən işlər haqqında danışsam, saatlarla vaxt lazım olacaq. Əsas məsələ ondan ibarətdir ki, biz görüləcək işlər haqqında danışaq. Çünki möhkəm təməl var. Həm 1993-2003-cü illərdə, eyni zamanda, son illər ərzində əldə edilmiş nailiyyətlər inkişaf üçün möhkəm təməl yaradıb.

Ardı-Səh-5

# İlham Əliyev: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir"



Əvvəli-Səh-4

Biz bu təməl üzərində müstəqil dövlət quruculuğu prosesini davam etdiririk.

Demokratiyanın inkişafı hər bir ölkə üçün böyük önəm daşıyır, o cümlədən Azərbaycan üçün. Hesab edirəm ki, biz bu istiqamətdə də böyük uğurlara nail olmuşuq. Azərbaycanda bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir, bütün azadlıqlar - söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı təmin edilir, heç bir məhdudiyyət yoxdur və olmayacaq. Bu da qarşıya bir vəzifə kimi qoyulur ki, biz gələcəkdə də demokratik inkişafa sadiq olmalıyıq.

Əgər təhlükəsizlik və sabitlik olmasa, əlbəttə ki, demokratiyadan, iqtisadi və sosial inkişafdan söhbət belə gedə bilməz və biz bunu yaxın tarixdən görürük. Ancaq indi bunu bütün dünya görür. Həm MDB məkanında, Avropada, Yaxın Şərqdə, həm də bizim qonşuluğumuzda çox təhlükəli proseslər gedir. Demokratik normalar pozulur, ayrı-seçkilik meylləri güclənir, milli-dini zəmində qarşıdurmalar, anlaşılmazlıq və müharibələr başlayır. Televizordan görürük ki, inkişaf etmiş ölkələrdə nümayişçilərə qarşı necə zorakılıq tətbiq edilir. Bəziləri əvvəllər bizi ittiham etməyə çalışırdılar ki, Azərbaycanda hüquqlar pozulur, demokratiya zəifdir, burada sərbəst toplaşma azadlığı yoxdur. Əlbəttə, hər kəs bilir ki, bunun hamısı yalandır. Azərbaycanda heç kim vəhşicəsinə döyülmür, heç kim söyülmür, heç bir məhdudiyyət qoyulmur. Necə ola bilər ki, bizə gəldikdə bu uydurma ittihamlar avtoritar rejim kimi xarakterizə edilir, ancaq demokratiyanın beşiyi sayılan ölkələrdə bu günlərdə televizordan gördüyümüz o videosüjetlər demokratiya sayılır. Necə ola bilər ki, nümayişçilər vəhşicəsinə döyülür, söyülür, təhqir edilir, bu, demokratiya hesab edilir. Azərbaycanda sabit vəziyyət mövcuddur, xalq rahat, azad şəraitdə yaşayır, amma bu, demokratiya hesab olunmur. Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. Bu, artıq dözülməz hala gəlib çatıb. Əlbəttə ki, Azərbaycan xalqı hər şeyi çox yaxşı görür və bilir. Bilir ki, bizə qarşı aparılan kampaniyanın səbəbi nədir, hədəfi kimdir və hansı nəticə gözlənilir. Səbəbi odur ki, biz öz yolumuzla, müstəqillik yolu ilə gedirik. Heç bir başqa ölkənin daxili işinə qarışmırıq, heç kimi də qoymuruq ki, bizim daxili işimizə qarışsın. Bu da bəzi qüvvələr tərəfindən qəbul edilmir. Çünki onlar öyrəşiblər, başqa yerlərdə ölkələr onların iradəsi ilə idarə olunur. Hədəf isə əlbəttə ki, Azərbaycanın siyasi rəhbərliyidir və mənəm. Çünki mən bu ölkənin başında dayanıram və Azərbaycanın siyasətini mən müəyyən edirəm. Azərbaycanın müstəqilliyinin də qarantı mənəm və Azərbaycan xalqıdır. Mübarizə üsullarına gəldikdə isə burada da heç bir innovasiya, yenilik yoxdur, köhnə, şablon, trafaret ittihamlar, əsassız iftiralar, uydurmalar, provokasiyalar, yalan, böhtan. Biz artıq bütün bunlara öyrəşmişik. Bunların heç biri bizim siyasətimizə və iradəmizə zərrə qədər təsir edə bilməz. Ancaq mən bir daha demək istəyirəm ki, demokratiya bizim şüurlu seçimimizdir, yolumuzdur. Azərbaycan bu istiqamətdə böyük uğurlara imza atıb, ancaq biz etiraf etməliyik, hələ ki, görüləsi işlər çoxdur. Heç bir cəmiyyət kamil deyil. Biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik.



Azərbaycanda bu il "Multikulturalizm ili" elan edilibdir. Bu da xüsusilə indiki şəraitdə dünyaya bir mesajdır. Azərbaycan cəmiyyəti əsrlər boyu multikulturalizm şəraitində yaşayır. Hələ bu ifadə yaranmadan biz milli barışıq, tolerantlıq, qarşılıqlı dəstək və hörmət şəraitində yaşayırdıq. Bu gün bizim nümunəmiz dünyada öyrənilir və dəstəklənir. Biz çalışacağıq və çalışmalıyıq, - bunu da qarşıya vəzifə kimi qoyuram, - həm Azərbaycan təcrübəsi dünyada daha da geniş şəkildə təbliğ edilsin, həm də biz bu təcrübəni digər ölkələrlə paylaşaq ki, dini, milli dözümlülük, tolerantlıq, multikulturalizm meylləri güclənsin. Əks təqdirdə, bu, bizə də problemlər yarada bilər. Çünki biz adada yaşamırıq və istər-istəməz xarici təsir də mümkündür. Necə ki, biz təsir edirik, Azərbaycana da təbii olaraq, media və digər vasitələrlə təsir göstərilir. Ona görə biz əlbəttə, maraqlıyıq ki, bölgədə və dünyada multikulturalizm meylləri güclənsin. Biz bu istiqamətdə fəaliyyətimizi davam etdirməliyik.



Xarici siyasətə gəldikdə, bizim siyasətimiz müstəqil siyasətdir, Azərbaycan xalqının maraqlarını təmin edir və uğurla təmin edir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmuşuq və Ermənistandan başqa bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Qonşularla münasibətlərimiz bizim üçün prioritet təşkil edir. Hesab edirəm ki, hər bir ölkə üçün bu, belə olmalıdır. Çünki biz bu coğrafiyada, bu qonşuluqda yaşayırıq. Biz maraqlıyıq ki, qonşuluqda sabitlik olsun, inkişaf getsin, xoşagəlməz hallar, təhlükələr olmasın. Qonşularımızın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir. Əgər qonşunun evi yanırsa, təbii olaraq, ilk növbədə, sən gedib qonşuya yardım edirsən. Digər tərəfdən sən özünü qoruyursan. Siyasətdə də belədir. Ona görə bizim qonşularla münasibətlərimiz formalaşıb, oturuşub və çox gözəl münasibətlərdir. Türkiyə, Rusiya, İran və Gürcüstan ilə həm ikitərəfli, həm çoxtərəfli formatlarda çox gözəl siyasi-iqtisadi, mədəni əlaqələrimiz var. Bu əlaqələr bizim üçün çox önəmlidir. Qonşular da bizə eyni mövqedən yanaşır. Biz bu əlaqələri gələcəkdə də prioritet kimi daim diqqət mərkəzində saxlamalıyıq. Biz bu əlaqələri gücləndirmək üçün nə lazımdırsa edəcəyik. Bununla bərabər, biz üçtərəfli formatda da işləyirik. Bu üçtərəfli formatın yaradılmasının təşəbbüskarı da biz olmuşuq. Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-İran-Rusiya. Bütün qonşularla ayrı-ayrılıqda üçtərəfli format artıq formalaşıb və bu, sadəcə olaraq formal xarakter daşımır. Çünki bu üçtərəfli əməkdaşlıq çərçivəsində bir çox önəmli məsələlər həll olunur, təhlükəsizliklə, iqtisadi əməkdaşlıqla, enerji və nəqliyyatla bağlı layihələr icra edilir. Yəni, bu əməkdaşlıq bizə də, qonşularımıza da böyük xeyir gətirir.

Müsəlman ölkələri ilə əməkdaşlığımız həmişə ən yüksək səviyyədə olmuşdur. Biz İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Beynəlxalq arenada, BMT-də bizi ən çox dəstəkləyən məhz müsəlman ölkələridir, biz də onları dəstəkləyirik. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə qəbul edilmiş qətnamə Azərbaycanı birmənalı şəkildə dəstəklədi, Ermənistanın təcavüzünü, aprel təxribatını qətiyyətlə pislədi və bununla bərabər, İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupunu da yaratmışdır. Bu əməkdaşlıq bizim üçün böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq tarixə, mədəniyyətə, dinə, ortaq maraqlara əsaslanır və daim diqqət mərkəzində olmalıdır.

Avropa ölkələri ilə də bizim əməkdaşlığımız genişlənir. Həm ikitərəfli formatda çox gözəl əlaqələrimiz var, həm də Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı istiqamətində böyük işlər görülür, görülübdür. Hazırda münasibətlər yüksələn xətlə inkişaf edir. Bu, bizi sevindirir, əminəm ki, Avropa qurumlarını da sevindirir. Avropa İttifaqının üzvü olan 8 ölkə ilə bizim strateji tərəfdaşlığımız haqqında sənədlər imzalanıb və ya qəbul edilib. Bu, Avropa İttifaqına üzv ölkələrin üçdə bir hissəsidir. Bütövlükdə, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin formalaşdırılması istiqamətində təkliflər indi masa üzərindədir. Ümid edirəm ki, yaxın zamanlarda ciddi danışıqlar başlanacaqdır.

Əlbəttə, xarici siyasətimizin və nəinki xarici siyasətimizin, ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı dəfələrlə fikirlərimi bildirmişəm. Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və xalq da bu mövqeyi dəstəkləyir, bəyənir. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeydşərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir, status-kvo dəyişdirilməlidir. Mən şadam, Minsk qrupuna həmsədrlik edən ölkələrin rəhbərləri, xarici işlər nazirləri, digər nümayəndələr artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğala son qoyulması deməkdir. Çünki status-kvo Ermənistanı qane edir, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu status-kvo əbədi qalsın. Onlar istəyirlər ki, bu danışıqlar sonsuz olsun. Yəni, görüntü, imitasiya naminə danışıqlar aparılsın. Biz dəfələrlə demişik ki, bu, mümkün deyil. Biz artıq 20 ildən çoxdur ki, gözləyirik. Vasitəçilər həmişə bizə gözləyin, sülh yolu ilə həll edin deyirlər. Son vaxtlar bunu daha da tez-tez təkrarlayırlar. Biz də istəyirik ki, sülh yolu ilə həll olunsun. Kim istəyər ki, müharibə başlasın?! Amma biz istəyirik ki, həll olunsun. Burada Ermənistan ilə Azərbaycan arasında fərq məhz bundadır. Ermənistan istəyir ki, sülh yolu ilə həll olunsun, amma bunun həllini əngəlləyir, ortaya süni əngəllər qoyur. Qabaqcadan qəbuledilməz şərtlər qoyur ki, biz bunu qəbul etməyək və beləliklə, danışıqlar onilliklər ərzində belə davam etsin. Bizim isə mövqeyimiz konstruktivdir və bunu vasitəçilər bilir. Rəsmi açıqlamasalar da, bunu etiraf edirlər. Konstruktiv mövqe nümayiş etdiririk ki, bu məsələ həll olunsun, torpaqlarımız işğaldan azad edilsin, Azərbaycan köçkünləri öz dədə-baba torpaqlarına qayıda bilsinlər. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bir daha demək istəyirəm, nə Azərbaycan xalqı, nə Azərbaycan dövləti heç vaxt imkan verə bilməz ki, tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Biz buna heç vaxt imkan verməyəcəyik."

Sonra dövlət mükafatlarının təqdim edilməsi mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2016-cı il üçün elm və ədəbiyyat sahələrində dövlət mükafatları təqdim edildi. Elm üzrə dövlət mükafatları Ramiz Məmmədov, Elbrus Əlizadə, Məhərrəm Həsənov və Zakir Eminova, ədəbiyyat üzrə mükafat isə Fikrət Qocaya təqdim olundu.

# Bakıda keçiriləcək “Gənclik və qlobal çağırışlar” mövzusunda konfransın iştirakçıları Milli Məclisdə olublar



***Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə Bakıda keçiriləcək “Gənclik və qlobal çağırışlar” mövzusunda konfransın iştirakçıları mayın 27-də Milli Məclisdə olublar. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin müavini Bahar Muradova ilə keçirilən görüşdə beynəlxalq gənclər təşkilatlarının - Beynəlxalq Gənc Demokratlar Birliyinin (İYDU), Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) və Avropa Demokrat Gənclər Birliyinin (DEMYC) təmsilçiləri iştirak ediblər.***

Milli Məclis sədrinin müavinin qonaqların gözəl bayram ərəfəsində Bakıya gəldiklərini vurğulayaraq, 28 May - Respublika Günü münasibətilə keçirilən bugünkü tədbirdə Prezident İlham Əliyevin ölkəmizin keçdiyi inkişaf yoluna dair müfəssəl məruzə etdiyini bildirib. Azərbaycan gəncliyinin böyük nailiyyətlərə imza atdığını deyən Bahar Muradova ölkəmizdə gənclər üçün hər cür şəraitin yaradıldığını, qadınların parlamentdə və dövlət idarəçiliyində təmsil olunduqlarını qeyd edib. Xalqımızın qədim tolerantlıq ənənələrindən, Şərqdə ilk demokratik respublika quraraq hələ ötən əsrin əvvəllərində qadınlara seçki hüququ verməsindən söz açıb.

Milli Məclisin tərkibi və strukturu ilə gəncləri tanış edən parlamentin sədr müavini dünyanın bütün ölkələri ilə qarşılıqlı dostluq və əməkdaşlığa açıq olan Azərbaycanın Ermənistan tərəfindən işğala məruz qalması və Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib. O, Azərbaycan ərazilərinin 20 faizini işğal etmiş Ermənistanın hələ də təcavüzkar siyasətdən əl çəkmədiyini bildirib.

Bahar Muradova dünyanın müxtəlif ölkələrindən olan konfrans iştirakçılarının YAP Gənclər Birliyinin təşkilatçılığı sayəsində bir araya gəlməsini yüksək dəyərləndirib. “Gənclik və qlobal çağırışlar” mövzusunda konfransın işinə uğurlar arzulayan parlamentin sədr müavini bu tədbir çərçivəsində gənclərin faydalı fikir mübadiləsi aparacaqlarına əminliyini ifadə edib. Sonra İtaliya, İspaniya, Almaniya, Türkiyə, Rusiya, İraq və digər ölkələrdən gəlmiş gənclər təmsil etdikləri İYDU, İCAPP və DEMYC barədə Bahar Muradovaya ətraflı məlumat verib, ürək sözlərini və ictimai-siyasi məsələlərə dair baxışlarını diqqətə çatdırıblar. Əcnəbi gənclər bu səfər sayəsində Azərbaycanı və xalqımızı daha yaxşı tanımaq imkanı əldə etdiklərini söyləyib, Bakıda gördükləri tərəqqidən, qonaqpərvərlikdən məmnunluqla söz açıblar. Sonda Milli Məclisin sədr müavini gəncləri narahat edən məsələlərə aydınlıq gətirib, onların suallarını cavablandırıb.

# Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 98-ci ildönümü Los-Ancelesdə qeyd olunub

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 98-ci ildönümü münasibətilə ölkəmizin Los-Ancelesdəki baş konsulluğu tanınmış Riviera Mərkəzində ziyafət təşkil edib. Ziyafətdə Los-Anceles şəhəri və vilayətinin məsul əməkdaşları, ABŞ Dövlət Departamentinin rəsmiləri, seçkili orqanların üzvləri, müxtəlif dövlətlərin baş konsulları, yerli universitetlərin və “beyin mərkəzləri”nin alimləri, nüfuzlu din xadimləri, KİV təmsilçiləri, eləcə də Azərbaycan, türk, yəhudi, Koreya və İran icmalarının fəalları iştirak ediblər. Tədbir tanınmış opera müğənnisi, Qremmi mükafatına namizəd Demetra Mustafaoğlu tərəfindən Azərbaycanın və ABŞ-ın dövlət himnlərinin ifası ilə başlayıb. Sonra Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev çıxış edərək Respublika Gününün Azərbaycan üçün xüsusi önəm daşıdığını, 98 il öncə məhz bu tarixdə müsəlman Şərqində ilk demokratik və dünyəvi respublikanın yaradıldığını söyləyib. Diplomat bu möhtəşəm hadisənin Azərbaycan xalqının milli dövlətçilik ənənələrinin güclənməsində müstəsna rol oynadığını bildirib. Müstəqilliyinin bərpasından sonra Azərbaycanın tərəqqisindən danışan baş konsul Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin sürətlə inkişaf etdiyini və müasirləşdiyini, regionun enerji, ticarət və nəqliyyat mərkəzinə çevrildiyini və beynəlxalq aləmdə mövqelərini gücləndirdiyini diqqətə çatdırıb.



Kaliforniyanın xristian icmasının tanınmış din xadimlərindən olan yepiskop Xuan Karlos Mendez bir müddət əvvəl Azərbaycana səfər etdiyini və olduqca xoş təəssüratlarla qayıtdığını, ölkəmizdə gördüyü güclü multikulturalizm və dinlərarası harmoniya ənənələrini yüksək qiymətləndirdiyini vurğulayıb. Yepiskop Mendez bu ənənələrin dövlət siyasətinə çevrilməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətlərinin olduğunu xüsusilə qeyd edib, Azərbaycanın tolerantlıq modelinin bu gün nəinki region, həmçinin bütün dünya üçün yüksək önəm daşıdığını bildirib.

Daha sonra Los-Anceles vilayətinin nümayəndəsi Lurdes Saab, Torrens Şəhər Şurasının üzvü Haydi Enn Eşkrəft, Orinc vilayətinin nümayəndəsi Ceyms Koyl və Los-Anceles şəhər merinin nümayəndəsi Daniel Təmm çıxış edərək bu əlamətdar gün münasibətilə Azərbaycan xalqını və ABŞ-da yaşayan Azərbaycan icmasını təbrik edib, ölkəmizlə bağlı xoş təəssüratlarını bölüşüblər. Tədbir bədii hissə ilə davam edib. Azərbaycan milli geyimlərini geyinmiş amerikalı gənclərin ziyafətdə iştirakı qonaqlarda böyük maraq oyadıb. Rəngarəng musiqi proqramı ilə çıxış edən Azərbaycanın istedadlı və gənc müğənnisi Çingiz Mustafayevin ifası alqışlarla qarşılanıb.



# CAR-da təşkil edilən qəbulun iştirakçıları Azərbaycan Xalq Cümhuriyyətinin tarixi barədə məlumatlandırılıblar

***Cənubi Afrika Respublikasının (CAR) inzibati paytaxtı Pretoriya şəhərində 28 May - Respublika Günü münasibətilə Azərbaycanın bu ölkədəki səfirliyi tərəfindən ziyafət təşkil edilib. Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə CAR-ın dövlət rəsmiləri, deputatlar, diplomatik korpusun nümayəndələri, Azərbaycan və türk icmalarının üzvləri, “Azərbaycanın Dostları” yerli QHT-sinin, KİV-lərin təmsilçiləri və iş adamları iştirak ediblər.***

Dövlət himnlərinin səsləndirilməsindən sonra çıxış edən Azərbaycanın CAR-dakı səfiri Elxan Poluxov 1918-ci il mayın 28-də yaradılmış və cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyətinin tarixi barədə məlumat verib, mövcudluğu dövründə Cümhuriyyət yaradıcıları tərəfindən həyata keçirilmiş tədbirlərdən danışıb. Bu xüsusda, E.Poluxov Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik və dünyəvi respublika olduğunu vurğulayaraq, demokratik dəyər və prinsiplərin Cümhuriyyət tərəfindən həyata keçirilmiş islahatlar və qəbul edilmiş qərarlarda öz əksini tapdığını qeyd edib. Xüsusilə dini, irqi mənsubiyyətindən, həmçinin cinsindən asılı olmayaraq, bütün vətəndaşların qanun qarşısında bərabər olduğunu və qadınlara seçki hüququnun verildiyini diqqətə çatdırıb.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan Respublikasının banisi ümummilli lider Heydər Əliyevin ölkəmizin inkişafı və regional liderə çevrilməsində misilsiz xidmətləri barədə danışan səfir E.Poluxov bu strateji siyasi xəttin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini diqqətə çatdırıb.

Daha sonra səfir regional inteqrasiya proseslərinə başlıca əngəl olan Ermənistan-Azərbaycan münaqişəsindən söz açıb, təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından münaqişənin hələ də öz həllini tapmadığından və Azərbaycanın öz ərazi bütövlüyünü istənilən yolla bərpa edəcəyini bildirib. Çıxışında Elxan Poluxov, həmçinin Azərbaycan-CAR Ticarət Palatasının təsis edildiyini və Azərbaycan haqqında kitab nəşr olunduğunu qeyd edib.

Daha sonra Beynəlxalq Əlaqələr və Əməkdaşlıq Departamentinin baş direktorunun müavini, səfir Ebraim Saley Respublika Günü münasibətilə CAR hökumətinin təbriklərini çatdırıb. CAR-ın Azərbaycanla münasibətlərin inkişafına xüsusi önəm verdiyini qeyd edən səfir Ebraim Saley Azərbaycanın yerləşdiyi regionun lider dövləti olduğunu bildirib. Demokratik dövlət quruculuğu yolunda hər iki dövlətin bənzər inkişaf tarixi keçdiyini vurğulayan E.Saley münasibətlərin inkişafı üçün mövcud potensialın dəyərləndirilməsi sahəsində CAR hökumətinin yaxından əməkdaşlığ etməyə hazır olduğunu vurğulayıb.



# Dövlət Sərhəd Xidmətinin Akademiyasında 28 May Respublika Günü qeyd olunub



*Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissələrində 28 May Respublika Günü münasibətilə təntənəli tədbirlər keçirilir, şəxsi heyətə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti barədə, xalqımızın müstəqillik və dövlətçilik ənənələri haqqında ətraflı məlumatlar verilir. Bu əlamətdar gün münasibətilə keçirilən tədbirlərdə Xalq Cümhuriyyətinin varisi olan müasir müstəqil Azərbaycan dövlətinin yaranmasında, möhkəmlənməsində və dünyada tanınmasında Ulu Öndər Heydər Əliyevin misilsiz tarixi xidmətləri minnətdarlıq hissilə qeyd edilir.*

Respublika Günü münasibətilə Dövlət Sərhəd Xidmətinin Akademiyasında keçirilən tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı Musa Qasımlı, Dövlət Sərhəd Xidməti Akademiyasının rəisi, polkovnik Elşən Verdiyev Xalq Cümhuriyyətinin yaradılmasını xalqımızın ictimai-siyasi və mədəni inkişafının, milli oyanışının məntiqi nəticəsi olduğunu bildiriblər.

Şərqin və türk dünyasının ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqların verilməsi, qadınların seçki hüquqlarının tanınması, milli ordunun, hüquq-mühafizə və təhlükəsizlik strukturlarının, sərhəd mühafizə qüvvələrinin yaradılması, müstəqil dövlət quruculuğunda qazanılan digər nailiyyətlər iftixar hissi ilə xatırlanıb.

Tədbirdə Xalq Cümhuriyyətinin sərhədlərin mühafizəsi istiqamətindəki fəaliyyəti xüsusi qeyd olunub. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi altında ardıcıl həyata keçirildiyi və Onun sayəsində mühüm xidməti nailiyyətlərin qazanıldığı bildirilib. Dövlət Sərhəd Xidmətinin peşəkar kadrlarla, müasir silah və texnika ilə təmin edilərək, qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə icra etməyə qadir olan quruma çevrilməsi vurğulanıb.

Tədbirin sonunda Respublika Günü münasibətilə təşkil olunan sərgiyə baxış keçirilib.

**ZÜMRÜD**

# Mübariz Qurbanlı Ağdaşda vətəndaşları qəbul edəcək



Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşları qəbulu davam edir. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyunun 1-də Ağdaş rayonunda Mingəçevir şəhərinin, Ağdaş və Yevlax rayonlarının sakinlərini qəbul edəcək. Qəbul Ağdaş şəhəri Heydər Əliyev Mərkəzində saat 10:00-da keçiriləcək. Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.



# Yaqub Eyyubov Kirsan İlümjinov ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, Bakıda keçiriləcək 42-ci Ümumdünya Şahmat Olimpiadası Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Kirsan İlümjinov ilə görüşüb. Bu barədə AZƏRTAC-a Bakı Şahmat Olimpiadasının mətbuat xidmətindən məlumat verilib. FİDE prezidenti 42-ci Ümumdünya Şahmat Olimpiadasına hazırlıq işlərinin gedişindən məmnunluğunu ifadə edib. K.İlümjinov Bakının indiyədək keçirilən şahmat olimpiadalarından ən yaxşısını təşkil etməklə bu mötəbər yarışın tarixində yeni səhifə açacağına əminliyini bildirib. Söhbət zamanı Bakı Şahmat Olimpiadasına hazırlıq işlərinin həlledici mərhələyə qədəm qoyduğu vurğulanıb. Görüşdə gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov, Federasiyanın vitse-prezidentləri - Bakı Şahmat Olimpiadasının Əməliyyat Komitəsinin direktoru Mahir Məmmədov və mötəbər yarışın baş hakimi Faiq Həsənov da iştirak ediblər.

# Azərbaycan Mətbuat Şurası Ukraynanın üç dövlət qurumuna müraciət ünvanladı

Azərbaycan Mətbuat Şurası Ukraynanın "Mirotvorets" Tədqiqatlar Mərkəzinin saytında 239 jurnalistin, o cümlədən Azərbaycanın kütləvi informasiya vasitələrini təmsil edən 11 media nümayədəsinin "Donetsk Xalq Respublikası" və "Luqansk Xalq Respublikası" adlanan separatçı quruluşlarla əməkdaşlıqda günahlandırılması, terrorizmə dəstək verməkdə ittiham edilməsi ilə bağlı Ukraynanın Xarici İşlər, İnformasiya Siyasəti nazirliklərinə, o cümlədən ölkənin Prezident Administrasiyasına müraciət ünvanlayıb. Şuradan Trend-ə verilən məlumata görə, müraciətdə adları həmin siyahıda əks olunmuş Azərbaycan jurnalistlərinin heç birinin sözügedən ərazilərdə olmadığı və akkreditasiya üçün bu quruluşlara müraciət etmədiyi diqqətə çatdırılıb. Eyni zamanda bildirilib ki, "Mirotvorets" təşkilatı həmin jurnalistləri terrorçuluğa, separatçılığa dəstək verməkdə ittiham edərkən onların Rusiyanın Xarici İşlər Nazirliyində akkreditasiyadan keçmələrini və bu ölkə ərazisində fəaliyyət göstərmələrini əsas götürüb. Müraciətdə qeyd olunub: "Məlumat üçün bildiririk ki, Azərbaycan özü də işğalçı Ermənistanın timsalında separatçılıqdan və ekstremizmdən əziyyət çəkir. Media ictimaiyyətimiz separatçılığın istənilən formasının təbliğinin Azərbaycanın dövlətçilik maraqları ilə zidd olduğunu birmənalı şəkildə qəbul edir. Bu həssas məsələdə dövlətimiz, ictimaiyyətimiz və mediamız vahid prinsipial mövqeyə malikdir. Qətiyyətlə deyə bilərik ki, Azərbaycan vətəndaşlığını daşıyaraq ölkəmizin kütləvi informasiya vasitəsini xaricdə təmsil edən şəxsin nəinki Ukraynanın, istənilən başqa dövlətin də ərazi bütövlüyünə xələl gətirəcək qeyri-qanuni aksiya və təşəbbüsdə yer alması mümkün deyildir". Müraciətdə həmçinin deyilir ki, "Mirotvorets" təşkilatının çoxlu sayda jurnalisti, o cümlədən ölkəmizin media mənsublarını bu sayaq şübhələndirmək istəyi beynəlxalq qanunvericiliyin tələblərinə, etik qaydalara və humanizm prinsiplərinə tamamilə ziddir: "Sizə müraciət edərək belə bir qurumun ümumilikdə Azərbaycan və Ukrayna dövlətləri arasında nifaq yaratmağa hesablandığı aydın görünən fəaliyyətinə diqqətlə yanaşmağı, müvafiq hüquqi tədbir görməyi xahiş edirik".

## Böyük Britaniyanın Baş nazirinin xüsusi nümayəndəsi Azərbaycana gələcək

Böyük Britaniyanın Baş nazirinin xüsusi nümayəndəsi Baronessa Emma Nikolson mayın 31-dən iyunun 6-dək Azərbaycanda olacaq. Bunu Trend-ə Böyük Britaniyanın Bakıdakı səfirliyindən deyiblər. Baronessa Emma Nikolson 1-4 iyun tarixlərində Bakıda keçiriləcək 23-cü Beynəlxalq "Caspian Oil&Gas 2016" sərgi və konfransda iştirak edəcək.

# 28 May - Azərbaycan xalqının tarixinin şərəfli səhifələrindən biridir



## Milli Məclisin deputatı, professor Musa Qasımlının yar.org.az-a müsahibəsi

***- Musa müəllim, bu günlərdə xalqımız 28 May Respublika Gününü böyük təntənə ilə qeyd edir. Sizcə, 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə yeri və rolu, əhəmiyyəti nədən ibarətdir?***

- 1918-ci il mayın 28-də Azərbaycan xalqını təmsil edən Milli Şura müsəlman Şərqində ilk dəfə olaraq respublika formasında Azərbaycanın dövlət müstəqilliyini elan etməsi tarixindən zaman etibarilə nə qədər çox uzaqlaşırıqsa, onun təkcə xalqımız və müsəlman Şərqi deyil, bütün dünya üçün böyük əhəmiyyət daşıdığı daha aydın şəkildə özünü göstərir, Cümhuriyyət irsinə təkrarən müraciət olunur və çoxlu suallara olan cavabları yenidən oxumaq və ibrət almaq lazım gəlir. 28 May - Azərbaycan xalqının tarixinin şərəfli səhifələrindən biridir. Çümhuriyyətin yaradılması və fəaliyyəti əhəmiyyətinə görə Azərbaycan sərhədlərini aşaraq daha geniş bir anlam daşıyırdı. Müsəlman dünyasına Respublika məfhumunu və məfkurəsini Azərbaycan xalqı gətirdi. Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman Şərqinin "Dan Ulduzu" oldu. Bu gün Şərqdə müstəmləkəçiliyin və müstəmləkə zülmü altında inləyən xalqların olmaması eyni zamanda Cümhuriyyətin təsiridir. Azərbaycan xalqı müstəmləkə zülmü altında inləyən xalqlara xilas yolunu göstərdi. Onların ürəyində ümid çırağı yandırdı. Heç əbəs deyil ki, Cümhuriyyət yaradıldıqdan sonra Sibir sürgünündə azərbaycanlılarla yanaşı zülm çəkən yüzlərlə ərəb, fars, əfqan və başqa xalqların nümayəndəsi Azərbaycanın vətəndaşı olmaqdan ötrü İrkutskdakı konsulluğa müraciət etmişdilər.

Cümhuriyyətin elan edilməsi göydəndüşmə olmadı. Məlumdur ki, çarizmin Azərbaycanın şimalını işğal edib ilhaq edənə qədərki müəyyən dövrdə Azərbaycan xalqının zəngin dövlətçilik ənənələri mövcud idi. Lakin 1828-ci ildə Azərbaycanın şimalı çar Rusiyası tərəfindən xanlıqlar formasında işğal edildikdən sonra tamamilə yeni bir şərait yarandı. Azərbaycanın ərazisi və xalqı iki yerə bölüşdürüldü. Azərbaycan xalqı işğalla barışmadı. İşğala qarşı müqavimət hərəkatı, üsyanlar baş verdi. Amansızlıqla yatırılan üsyanlardan sonra müstəqillik şüurunun, onun daşıyıcılarının sistemli şəkildə məhvinə başlandı. İşğaldan narazı olaraq ona qarşı çıxan şəxsləri amansız Sibir sürgünləri və həbsxanalar gözləyirdi. Çarizm orqanları hakimiyyət əleyhinə olan ən xırda təzahürləri amansızlıqla məhv edirdi. Qeyd etmək lazımdır ki, rəsmi məlumatlara görə, Cümhuriyyət elan edilənədək Sibir sürgünlərində təqribən 5 min nəfər azərbaycanlı var idi.

İmperiya ərazisində aparılan islahatların başlıca məqsədi çarizmin ümumi müstəmləkəçilik mənafelərini təmin etmək, ucqarların Mərkəzə daha sıx bağlanması idi. Azərbaycanda demoqrafik şəraiti dəyişdirməkdən ötrü qeyri-azərbaycanlılar iri şəhərlərə və müxtəlif yaşayış məntəqələrinə yerləşdirilirdilər. Yadellilərin gəlməsi sadəcə demoqrafik şəraiti dəyişdirmirdi. Gəlmələr yerli əhaliyə məxsus zəngin torpaqlara sahib oldular. Onlar üçün üstün şərait yaradılır, hətta silah gəzdirmələrinə icazə verilirdi. Bütün bunlar təkcə sosial deyil, milli ziddiyyətləri də kəskinləşdirirdi. Sonrakı dövrlərdə baş verən ən böhranlı anlarda məhz köçürülənlər çarizmin müstəmləkəçilik siyasətinin yerlərdə əsas dayaqlarına çevrilirdilər. Azərbaycanın qarşılaşdığı bütün milli və ərazi problemlərinin təməlləri məhz işğaldan sonra çar Rusiyası tərəfindən qoyuldu.

Özünün ümumi strateji mənafelərini yerinə yetirmək üçün çarizm Azərbaycanda idarəçilik işlərinin aparılmasına kömək edən yerli etibarlı şəxslərdən ibarət məmurların yaradılmasında maraqlı idi. Bütün bunlar çarizmin müstəmləkəçilik və ruslaşdırma siyasətinə xidmət edirdi. Azərbaycanda müasir məktəblər və mədəni-maarif müəssisələri yaradıldı. Ana dilində ilk qəzet buraxıldı. İlk milli teatr yaradıldı. Hansı motivlərdən asılı olmasına baxmayaraq, təhsil və mədəniyyət sahəsində yeridilən siyasət Azərbaycan xalqının maariflənməsinə, dövrünün elm və mədəniyyət nailiyyətlərindən xəbər tutmasına imkan verirdi. Maarifçilik xalqda milli hisslərin oyanmasında, milli şüurun inkişafında və nəhayət, milli hərəkatın yaranmasında mühüm rol oynadı. Azərbaycan xalqının millətləşmə prosesini sürətli keçməsində bu amil mühüm rol oynadı. İmperiya ərazisində gedən proseslər heç şübhəsiz, Azərbaycana da təsirsiz ötüşmədi. Rusiya tərkibində olan şimali Azərbaycanda xalqımızın ümmətçilikdən millətçiliyə keçməsi cənubi Azərbaycana nisbətən daha sürətli oldu. Azərbaycan Rusiya vasitəsi ilə Avropaya daha çox yaxınlaşdı. Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi kimi ziyalılar xalqın maariflənməsində əvəzsiz xidmət göstərdilər. Carizm dövründə yaradılmış müxtəlif ictimai təşkilatlar, xeyriyyə cəmiyyətləri xalqın problemlərinin həllinə yardım edilməsində, humanitar əsasda birləşməsində müəyyən rol oynayırdı.

1905-1907-ci illər inqilabı və ondan sonra baş verən proseslər Azərbaycana da yeniliklər gətirdi. Bu dövrdə bütün dünyada gedən ictimai-siyasi hərəkatda əsasən iki böyük cərəyan - milli-azadlıq hərəkatı, millətçilik və sosial-demokratiya mövcud idi. Həmin məqsədlərə uyğun olaraq ictimai və siyasi təşkilatlar yaradıldı. Milli-azadlıq hərəkatı son nəticədə imperiyaların dağılmasına, zülm altında inləyən xalqların azad olmasına və müstəqil dövlətlərinin yaradılması məqsədini güdürdüsə, sosial-demokratiya isə daha çox rejimləri dəyişməklə mahiyyətinə görə, imperiyaların qorunub-saxlanılmasına yönəlmişdi. Azərbaycan xalqının istəklərinin ifadəçiləri, milli-azadlıq hərəkatının öndərləri "Difai", "Müsavat", sosial-demokratiyanın təmsilçisi isə "Hümmət" oldu. Müxtəlif cərəyanları təmsil edən partiyaların mövcudluğu Azərbaycan siyasi tarixinin zənginliyini və çoxtərəfliliyini göstərir.

Çarizm Azərbaycanda pantürkçüləri və panislamçıları, müstəqillik tərəfdarlarını amansızlıqla təqib edirdi. Birinci dünya müharibəsi və ya o zaman deyildiyi kimi, Böyük müharibə xalqları özlərini müdafiəyə hazırlaşmağa vadar etdi, hafizə etmək və gələcək həyatlarını necə qurmaq barədə düşünməyə vadar edirdi. İmperiyaların və müstəmləkə zülmü altında inləyən xalqların həyatlarının daha əvvəlki kimi olmayacağı artıq müharibənin əvvəllərindən aydın idi. Heç əbəs deyil ki, müharibənin sonlarında yaranmış gərgin şəraitdə Azərbaycanın istiqlalı məsələsində çox az saylı azərbaycanlı ziyalılar Əli bəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, Məhəmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov və b. müstəsna rol oynadılar. Onlar xalqın taleyi ilə bağlı məsələlərdə məsuliyyəti üzərlərinə götürdülər. Azərbaycanın gələcəyini düşünən ziyalılar müxtəlif yollar aramağa başladılar. Onlar daxili amillərlə yanaşı xarici amilə də ümid edirdilər. Xarici amil isə Osmanlı dövləti idi. İstanbul dünya türklüyünün və islamın mərkəzi olduğundan azərbaycanlılar da Osmanlıya nicat gözü kimi baxırdılar. Bu dövrdə azərbaycanlı ziyalıların bir qismi öz ümidlərini türk və müsəlman dünyasının mərkəzi olan Osmanlı Türkiyəsinə bağlayırdı. Belə mövqe müharibə aparan Osmanlının da strateji niyyətlərinə tam uyğun gəlirdi. Bu məqsədlə bir neçə azərbaycanlı hətta Ərzuruma gedərək Ənvər Paşa ilə görüşmüşdülər. Onlar azərbaycanlıların çarizmin zülmündən xilas olmalarına kömək göstərilməsini xahiş etmişdilər. Eyni zamanda Osmanlı hökuməti də Qafqaz və Mərkəzi Asiya istiqamətində hərəkət etmək üçün bir etibarlı müttəfiqə, sosial dayağa ehtiyac duyurdu. Bu zaman maraqlar üst-üstə düşürdü.

1917-ci ilin fevralında Rusiyada çarizm devrildi. Müvəqqəti hökumət quruldu. Oktyabr ayında isə bolşeviklərin hakimiyyətə gəlməsi tamamilə yeni bir şərait yaratdı. Noyabr ayının əvvəllərində Bakıda bolşeviklər hakimiyyəti ələ aldılar. Bundan bir neçə gün sonra Antanta ölkələrinin yardımı ilə Tiflisdə Transqafqaz Komissarlığı yaradıldı. Rusiyada bolşevik hökuməti müharibədən çıxdığını elan etdi. Almaniya bloku ölkələri ilə barışıq imzaladı. Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məslisinə seçilən deputatlar mərkəzdə fəaliyyətə başlaya bilmədiklərindən və bu orqan bolşeviklər tərəfindən qovulduqdan sonra onlar 1918-ci il fevralın 23-də Tiflisdə Transqafqaz Seymini (parlamenti) yaratdılar. Bu parlamentdə Azərbaycan fraksiyası 44 nəfərdən ibarət idi. Həmin ilin aprelin 22-də Seym Cənubi Qafqazın müstəqilliyini elan edərək Zaqafqaziya Demokratik Federativ Respublikasını yaratdı.

Osmanlı dövləti Cənubi Qafqaz istiqamətində əlverişli imkan qazandı. Azərbaycan uğrunda böyük dövlətlərin mübarizəsi kəskinləşdi. Rus Qafqaz cəbhəsi dağıldı. Ordu hissələri ilə birlikdə geri dönən ermeni terror dəstələri Cənubi Azərbaycanda, Şərqi Anadoluda törətdikləri qırğınları bu dəfə Cənubi Qafqazda davam etdirdilər. Bu qanlı hadisələrin zirvə nöqtəsi 1918-ci ilin martında erməni daşnak və Bakı Soveti qüvvələrinin Bakıda və Bakı quberniyasında azərbaycanlılara qarşı törədikləri soyqırım oldu. Soyqırımın başlıca məqsədi istiqlal tərəfdarlarını məhv etmək, onun sosial dayaqlarını dağıtmaq, müharibənin son mərhələsində döyüşən dövlətlərin strategiyasında mühüm yer tutan Bakı neftinə sahib olmaq, Azərbaycanın Rusiyadan ayrılmasına imkan verməmək, Osmanlı hücumlarının qarşısını almaq idi. Transqafqaz Seymi azərbaycanlılara qarşı törədilən qırğınların qarşısını ala bilmədi və daxili ziddiyyətlər ucbatından süqut dövrünə qədəm qoydu.

Daxili ziddiyyətlər aradan qaldırılmadığından mayın 27-də Azərbaycan fraksiyası ayrıca iclasına toplaşaraq müstəqilliyi elan etmək qərarına gəldi. Fraksiya özünü Azərbaycan Milli Şurası elan etdi. Azərbaycan xalqının tarixi istəyi yerinə yetirildi. Milli Şuranın mayın 28-də Tiflisdə keçirilən iclasında Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi. Altı maddədən ibarət olan Bəyannamədə deyilirdi: "1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir. 2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir. 3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərə, xüsusən qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir. 4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir. 5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır. 6. Müəssislər Məclisi toplanana qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan müvəqqəti hökumət durur".

Azərbaycanın idarə forması Xalq Cümhuriyyəti idi. Yeni dövlət bütün qonşularla mehriban münasibətlər qurmaq istəyini bəyan etdi. Ölkə ərazisində yaşayan bütün xalqlar bərabər elan edildilər. Onlar üçün bərabər hüquqlar elan olundu. Azərbaycanın başında xalqın seçdiyi Milli Şura-Parlament dururdu. Azərbaycan parlamentli respublika idi.

Cümhuriyyətin elan edilməsi ilə Azərbaycan xalqı XX əsrdə ilk dəfə olaraq dövlət millətinə çevrildi. Əgər Azərbaycanın şimal əraziləri Rusiya tərəfindən xanlıqlar formasında işğal edilib imperiyanın tərkibinə qatılmışdısa, 1918-ci ildə onun tərkibindən vahid, müstəqil dövlət kimi çıxdı.

Cümhuriyyətin elan edildikdən dərhal sonra milli hökumət yaradıldı, nazirliklər quruldu. Azərbaycanda icraedici hakimiyyəti hökumət həyata keçirirdi. İlk baş nazir Fətəli xan Xoyski oldu. Hökumətdə birinci, ikinci və üçüncü kabinetə Fətəli xan Xoyski, dördüncü və beşinci kabinetlərə Nəsib bəy Usubbəyli başçılıq etdi.

Hökumət Tiflisdən müvəqqəti paytaxt olan Gəncəyə köçdü. Başlıca məqsəd ölkənin paytaxtı olan Bakı şəhərini yadellilərdən azad etmək idi. Azərbaycan ordusu quruldu. Yardıma gələn türk hərbçilərindən və azərbaycanlılardan ibarət qurulan Qafqaz İslam Ordusu sentyabrın 15-də Bakını azad etdi. Azərbaycan hökuməti azərbaycanlıların tarixi, siyasi, mədəni, iqtisadi, mənəvi, təbii paytaxtına

# 28 May - Azərbaycan xalqının tarixinin şərəfli səhifələrindən biridir

köçdü.

Osmanlı dövlətinin müharibədən çıxması yeni bir şərait yaratdı. Mondros barışığından sonra noyabrın 17-də Bakıya müttəfiqlər adından general Tomson başda olmaqla Böyük Britaniya qoşunları gəldi. Azərbaycanın siyasi həyatında yeni bir dövrə qədəm qoyuldu.

***- Azərbaycan parlamentinin fəaliyyəti haqqında nə deyə bilərsiniz? Fəaliyyət göstərdiyi müddət ərzində qanunverici orqan respublikanın həyatı üçün vacib olan hansı sənədləri qəbul etdi?***

- Gəncədə öz fəaliyyətini dayandırmış Milli Şura noyabr ayında Bakıda fəaliyyətə başladı. Milli Şura Azərbaycan parlamentini 120 nəfərdən ibarət formalaşdırmağı qərara aldı. Azərbaycan parlamentinin yaradılması haqqında qanun 1918-ci il noyabrın 19-da qəbul edildi. Parlamentin tərkibinə əhalinin sayına uyğun olaraq 80 nəfər azərbaycanlı və digər xalqların nümayəndələri daxil edilməli idi. Parlament 1918-ci il dekabrın 7-də Tağıyevin qız məktəbində (indiki Əlyazmalar İnstutunun binasında) Azərbaycan Parlamenti açıldı. Parlamentdə 11 fraksiya fəaliyyət göstərirdi. Yerlər aşağıdakı kimi bölüşdürülmüşdü: türk-müsəlman əhali-80; ermənilər-21; ruslar-10; almanlar-1; yəhudilər-1; gürcülər-1; polyaklar-1; Bakı həmkarlar ittifaqı-3; Bakı neft sənayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqı-2. Lakin Azərbaycanın müstəqilliyini istəməyən ermənilər və başqaları parlamentin işində iştirak etmədilər. Parlamentin sonuncu iclası 1920-ci il aprelin 27-də keçirildi. Ümumiyyətlə, parlamentin 155 iclası keçirildi. Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarıldı. Onlardan 230-u qəbul edildi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov, müavinləri Həsən bəy Ağayev və Məmmədyusif Cəfərov idi. Azərbaycan parlamenti milli tolerantlıq baxımından hətta Qərb ölkələri üçün bir model idi. Dini baxımdan da bütün digər dövlətlərə nümunə rolunu oynayırdı.

Dövlət atributları - himn və bayraq qəbul edildi. Xüsusi xidmət orqanları yaradıldı. Sərhəd və Gömrük xidməti quruldu. Ordu yaradıldı. Türk dili (Azərbaycan dili) dövlət dili elan edildi. İbtidai və orta məktəblərdə işlərin ana dilində aparılması haqqında qanun qəbul edildi. Bakı Dövlət Universiteti yaradıldı. Təhsil və xalq maarifi, səhiyyə sahəsində tədbirlər həyata keçirildi. Ölkənin hər yerində müxtəlif səviyyəli məktəblər açıldı. Dərsliklər hazırlanmağa başladı. Xaricdən müəllimlər dəvət edildi. Mədəniyyətə xüsusi diqqət yetirildi. Teatrlar, kitabxanalar yaradıldı. Ana dilində mətbuat orqanları quruldu. Milli kadrların hazırlanmasına xüsusi diqqət yetirildi. 100 nəfər azərbaycanlı gəncin xarici ölkələrdə oxumağa göndərilməsi barədə qərar qəbul edildi.

***- Xahiş edirik ki, cəmi 23 ay yaşamış Cümhuriyyətin süqutunun səbəbləri haqqında da fikirlərinizi bizimlə bölüşəsiniz...***

- Mürəkkəb və çətin bir şərait mövcud olduğundan aparılan islahatların ardıcıl deyildi. Aqrar islahat həyata keçirilmədi. Cümhuriyyətin sosial dayaqları zəiflədi. Çarizm tərəfindən Azərbaycana köçürülmüş bir sıra xalqlar dövlət müstəqilliyini tanımır, onu Rusiyanın tərkib hissəsi hesab edirdilər. Erməni təcavüzü dövləti zəiflədirdi. Erməni terrorunun, ərazilərin işğalının və kütləvi soyqırımların dayandırılması başlıca problemlərdən idi. Beynəlxalq şərait də müstəqil Azərbaycan üçün əlverişsiz idi.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelində bolşevik Rusiyasının istilasına uğradı. Cümhuriyyət daxili deyil, xarici amillər səbəbindən məğlub oldu. Müstəqil Azərbaycan dövlətinin mövcudluğu üçün əlverişli beynəlxalq şərait yox idi. Osmanlı dövləti Cümhuriyyətin yaradılmasında mühüm xarici amil rolunu oynamışdı. Azərbaycan xalqı monarxiyadan yardım alıb respublika qurmuşdu. Məğlubiyyətə beynəlxalq amillər, Mustafa Kamal Paşanın bolşevik lideri Lenin ilə yaxınlaşması mənfi təsir etdi. Kamalçı Türkiyə və bolşevik Rusiyasının Antanta ölkələrinə qarşı mübarizəsi nəticəsində müttəfiqə çevrilmələri regionda geosiyasi vəziyyəti dəyişdirdi. Bu işğalda Bakı nefti amili, strateji maraqlar mühüm rol oynadı. Rusiya bir neçə il əvvəl Bakını itirməklə böyük dövlət statusunu da itirmişdi. Bu mövqeyi bərpa etməkdən ötrü Rusiya yenidən Azərbaycanı işğal etdi.

***- Sizcə, həmin dövlətin tarixi, Xalq Cümhuriyyətinin irsi lazımi səviyyədə araşdırılıbmı? Bu araşdırmaların yenə də davam etdirilməsi zərurəti varmı?***

- Sovet dövründə Azərbaycan tarixinin barəsində yazılmayan və danışılmayan, üstündən sükutla keçilən, yazılan və danışılanda isə kobudcasına təhrif edilən səhifələrindən biri 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövrü olub. Bu tarixə dair arxiv sənədləri daim "məxfi", "tam məxfi" qrifləri altında saxlanıldığından tədqiqatçılar tarixi həqiqətlərin heç də hamısını bilməyiblər, bilənləri isə ideologiyanın təsiri altında onu məqsədli şəkildə, düşünərək təhrif edərək yazıblar. Lakin Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra yaranmış yeni şəraitdə "tam məxfi", "məxfi" arxiv fondları açıldıqda tamamilə başqa bir mənzərə üzə çıxdı. Cümhuriyyət tarixinə yeni baxış meydana gəldi.

1998-ci ildə Ümummilli lider Heydər Əliyevin imzaladığı Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin qeyd edilməsi barədə sərəncamından sonra bu sahədə xeyli işlər görüldü. Cümhuriyyət dövrü tarixinin sistemli araşdırılmasına başladılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Parlament iclaslarının stenoqramları nəşr edildi. Kitab və monoqrafiyalar çapdan çıxdı.

Bu gün ölkəmizdə milli tariximizə, mədəniyyətimizə xüsusi qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ölkəmizin paytaxtında Cümhuriyyət xadimlərimizin şərəfinə abidə ucaldılıb. Onların xatirəsi əbədiləşdirilib. Adlarına küçə, prospekt və qəsəbələr vardır. Görkəmli xadimlər haqqında sənədli filmlər çəkilib. Xarici ölkələrdəki məzarları təmir edilib. Cümhuriyyətimiz 98-ci ildönümü ilə əlaqədar olaraq ölkəmizdə geniş tədbirlər həyata keçirilir.

***- Musa müəllim, Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasının 25-ci ilini yaşayırıq. Xalq Cümhuriyyətinin varisi olan bugünkü müstəqil Azərbaycanın inkişafı, qazandığı uğurlar haqqında nə deyə bilərsiniz? Hazırda da bəzi beynəlxalq güclər milli dövlətləri sıradan çıxarmağa çalışırlar. Belə təhdidlər Azərbaycana da qarşı var. Sizcə, dövlətimiz belə təhdidlərə qarşı nə dərəcədə dayanıqlıdır?***

- Azərbaycan dövləti 25 ildə bir çox ölkələrin bəlkə də yüz ildə keçdiyi yolu keçib. Güclü, rəqabətə davamlı dövlət qurulub. Cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında tariximizdə bir sıra ilklərə imza atılıb. Azərbaycan Kosmos klubunun üzvü olub, BMT Təhlükəsizlik Şurasının üzvü seçilib. Ölkəmiz beynəlxalq toplantıların keçirildiyi, sivilizasiyaları qovuşduran, əməkdaşlığa cəlb edən ölkəyə çevrilib. Azərbaycan dövlətinin parlaq gələcəyi vardır.

## Abel Məhərrəmov: "Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin böyük yadigarıdır"



"Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin böyük yadigarıdır". Bu fikri BDU-nun rektoru, akademik Abel Məhərrəmov deyib. A.Məhərrəmov bildirib ki, Xalq Cümhuriyyətinin ömrünün çox qısa olmasına baxmayaraq onun yadigarı olan Bakı Dövlət Universiteti yaşayır və inkişaf edir. Onun sözlərinə görə, bu gün universitet böyük elm mərkəzi və təhsil ocağıdır. "Burada 20 mindən çox tələbə təhsil alır, universitetin nəzdində elmi-tədqiqat institutları, elmi mərkəzlər fəaliyyət göstərir. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra dövrün ictimai-siyasi prosesləri müstəqilliyimizi təhlükə altına almışdı. Həmin vaxt universitetdə beyin axını yaranmış, təhsilin infrastrukturu pozulmuşdu. Belə bir vaxtda Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanı bir çox təhlükələrdən xilas etdi. Ümummilli liderin hakimiyyəti dövründə Azərbaycan çox böyük nailiyyətlərə imza atıb və həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir. Müstəqilliyi itirməmək üçün gənclik, xüsusən onun avanqard hissəsi olan tələbələr öndə getməli, qlobal düşüncəyə, milli təəssübkeşliyə malik olmalı, mənəvi dəyərləri qorumalıdır"- deyə, akademik vurğulayıb.

## Barak Obama dünyanı nüvə silahından imtina etməyə çağırıb



ABŞ Prezidenti Barak Obama Xirosima şəhərinə səfəri zamanı dünyanı nüvə silahından imtina etməyə çağırıb. AZƏRTAC RİA Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, Barak Obama 1945-ci ildə Xirosima atom bombardmanı qurbanlarının xatirə abidəsi önünə çiçək qoyub. Ağ evin rəsmi saytı hadisə yerindən canlı yayım təqdim edib. "Biz yaxın keçmişdə baş verən dəhşətli zorakılıq üzərində fikirləşmək üçün gəlirik. Biz həlak olanları yad etmək üçün gəlirik. Biz bu dəhşətli müharibədə həlak olan günahsız insanların xatirəsini uca tuturuq", - deyə Barak Obama qeyd edib. ABŞ Prezidenti, həmçinin gələcəkdə belə iztirabların baş verməməsi üçün bütün dünyanın məsuliyyət daşıdığını bildirib və dünya ölkələrini nüvə silahından imtina etməyə çağırıb. Abidəyə gülqoyma mərasimində Barak Obama ilə birgə bombardmanda xəsarət alan və Atom və Hidrogen Bombalarından Zərər Çəkənlər Təşkilatları Konfederasiyasının həmsədrləri Sunao Suboi və Mikiso İvasa, həmçinin bir həftə əvvəl Amerikanın üzr istəməsi tələbi ilə çıxış edən təşkilat katibliyinin başçısı Terumi Tanaka da iştirak ediblər. Beləliklə, Barak Obama Xirosimanı ziyarət edən ilk ABŞ prezidenti olub. Xatırladaq ki, Amerika Hərbi Hava Qüvvələrinin ikinci dünya müharibəsinin yekun mərhələsində - 1945-ci il avqustun 6-da və 9-da Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atdığı iki atom bombası 200 minədək insanın həyatına son qoymuşdu. Faciə qurbanlarının ümumi sayı isə 450 min nəfərdən çoxdur. Sağ qalanlar radiasiya şüalanmasının yaratdığı xəstəliklərdən indiyədək əziyyət çəkirlər. Son məlumata görə, onların sayı 183,5 min nəfər təşkil edir.

## Yaqub Mahmudov: "Azərbaycan Xalq Cümhuriyyəti tariximizin şərəf səhifəsidir"

"28 May tarixi Şərqin və türk dünyasının tarixində çox böyük gündür". Bu fikri AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov deyib. Y.Mahmudov bildirib ki, Azərbaycan xalqı Gülüstan və Türkmənçayda parçalanmasına baxmayaraq I Dünya müharibəsinin gedişində, mürəkkəb tarixi şəraitdə ayağa qalxmağı bacardı və bütün dünyaya var olduğunu sübut etdi. Onun sözlərinə görə, dünyanın, Şərqin və türk dünyasının ən demokratik respublikasını Azərbaycan xalqı yaradıb. "Qadınlara kişilərlə bərabər hüquqları ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti verib. Bütün qonşu dövlətlərə dostluq siyasətini biz elan elədik. Cümhuriyyət Azərbaycanda mənsəbindən, dinindən asılı olmayaraq bütün xalqlara bütün azadlıqları vəd etdi. O sübut etdi ki, Avropadan da, Rusiyadan da daha artıq dərəcədə demokratik ölkə yaratmağa qadirik. Azərbaycan Xalq Cümhuriyyətini yaradan ziyalıların xalqımız qarşısında ən böyük xidməti Azərbaycan dövlətçiliyini dirçəltmələridir. Bu cümhuriyyət bizim tariximizin şərəf səhifəsidir"- deyə, Y.Mahmudov vurğulayıb.



# Bölgələrdə 28 May Respublika Günü qeyd olunub



## Yevlax

Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatının geniş konfrans zalında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 98-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaq keçirildi. Tədbiri şəhər icra hakimiyyəti başçısının birinci müavini Qənimət Qaraşov açaraq, Dövlət Himninin ifasından sonra “Azərbaycan müstəqillik illərində” mövzusunda məruzə ilə çıxış etdi. Real tarixi faktlara istinad edən natiq öz çıxışında 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində cümhuriyyətə rəhbərlik etmiş Əlimərdan bəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Fətəli Xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əlağa Şıxlinskinin və başqalarının adlarını çəkdi, vətən və xalq qarşısındakı xidmətlərindən danışdı. Cəmi 23 il yaşamasına baxmayaraq, Azərbaycan tarixində mühüm bir mərhələnin, məhz həmin dövrdə qoyulduğunu, həmçinin dövlətin əsas atributlarının- bayrağının, himninin və gerbinin qəbulunu tarixi uğur kimi dəyərləndirdi. “Bu gün Ulu Öndərin müqəddəs və gələcəyə hesablanmış siyasi ideyalarını fəaliyyətinin əsas prioriteti etmiş möhtərəm Prezidentimiz İlham Əliyev Cənabları ölkəmizi beynəlxalq səviyyədə müstəqil söz və fikir söyləmək hüququ olan subyekt kimi tanıtmışdır”,- deyən məruzəçi çıxışını bir daha iştirakçıları əlamətdar ildönümü münasibətilə təbrik etməklə yekunlaşdırdı. Sonra tədbir iştirakçılarına Azərbaycan Respublikasının müstəqillik illərini əks etdirən qısametrajlı sənədli film nümayiş etdirildi.

5 saylı tam orta məktəbin tarix müəllimi, respublikanın əməkdar müəllimi Əmiraslan Beşirov, Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Aygün Qasımova, YAP Yevlax rayon təşkilatının gənclərlə iş üzrə təlimatçısı Rafiq Əliyev və başqaları məruzə ətrafında çıxışlarında 98 il bundan öncə Şəqdə ilk demokratik dövlət kimi formalaşmış gənc Azərbaycan Cümhuriyyətinin bu günümüzə bəxş etdiyi yüksək milli-mənəvi, mədəni və ictimai-siyasi dəyərlərdən danışdılar. Onu da yekdilliklə iştiakçıların diqqətinə çatırdılar ki, 1918-ci ildə bir kərə yüksələn bayrağın bir daha enməməsini istəyən qədirbilən xalqımızın arzusunu, məhz Ulu Öndərimiz Heydər Əliyev üçrəngli bayrağımızın1991-ci ildə ilk olaraq Naxçıvan Ali Məclisi binasının üzərində ucaldılmasını təmin etməklə əbədiləşdirdi.

## Daşkəsən

Dünən Daşkəsən rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə 28 May Respublika Günü münasibətilə dəyirmi masa keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin başçısının müavini Namiq Süleymanov çıxış edərək, tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edib. O, qeyd etmişdir ki, bu əziz gündə əbədiyaşar Ulu Öndərimiz Heydər Əliyevin hikmətli kəlamı yada düşür. O deyirdi : “Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”.

Düz 98 il əvvəl may ayının 28-də xalqımızın vətənpərvər qüvvələrinin səyi ilə dövlət müstəqilliyinin rəmzi olan üçrəngli bayrağımız qaldırıldı. Bununla da Azərbaycanın müstəqilliyi bütün dünyaya bəyan edildi. Azərbaycan Xalq Cumhuriyyəti Şərqdə ilk demokratik müstəqil dövlət kimi tanındı. Bu gün də xalqımız özünün istiqlal bayramının parlaq səhifəsi olan Azərbaycan Demokratik Respublikasının yaranması gününü böyük qürur hissi və təntənə ilə qeyd edir. 23 aylıq ömür yaşamış Azərbaycan Xalq Cümhuriyyəti regionda geosiyasi vəziyyətin dəyişməsi ilə süqut etmişdir. Qısa müddət ərzində mövcud olmasına baxmayaraq, əsas dövlət insitututları, məhz həmin dövrdə yaranmışdır. Bugünkü Azərbaycan dövlətçiliyinin kökləri müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı öz müstəqilliyini yenidən bərpa etmək və dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət qazandı. Həmin vaxtlar çoxları qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və daxili qeyri- sabitliyin hökm sürdüyü Azərbaycanın bu mürəkkəb vəziyyətdən çıxacağına və uğur qazanacağına inanmırdı. Məhz 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin prezident seçilməsindən sonra ölkənin davamlı inkişafı üçün ilkin şərt olan Azərbaycanın müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi istiqamətində uğurlu strategiyanın həyata keçirilməsinə başlanıldı. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə yönəlmiş strategiyası Onun layiqli davamçısı möhtərəm Prezident Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarını, Onun qurub-yaratdıqlarını dönmədən inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev öz müdrik və məqsədyönlü fəaliyyəti ilə müstəqilliyimizi daha da möhkəmləndirir. Azərbaycanın beynəlxalq nüfuzunu, ictimai-siyasi sabitliyin, iqtisadiyyatın möhkəmləndirilməsi istiqamətində atılan addımlar əhalinin rifah halının yüksəldilməsinə göstərilən diqqət və qayğı Heydər Əliyev ənənələrinə sadiqliyin əyani təzahürüdür.

Digər çıxış edənlər də öz nitqlərində vurğulamışlar ki, Azərbaycan Xalq Cümhuriyyətinin 98-ci ildönümünü qeyd edən bugünkü müasir Azərbaycan, sözün əsl mənasında, Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Ulu Öndərimizin siyasətinin layiqli davamçısı olan möhtərəm Prezident Cənab İlham Əliyev bu gün müstəqil Azərbaycan inamla və uğurla xoşbəxt gələcəyə aparır, həyata keçirilən mühüm siyasi xətt bütün konturları ilə Azərbaycanın dövlət müstəqilliyinin günbəgün möhkəmlənməsinə, əbədi və sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir.

28 May - Respublika Günü hər bir soydaşımız üçün milli və iftixar günü əziz bir bayramdır. Qətiyyətlə deyə bilərəm ki, xalqımızın müqəddəs arzuları bu gün möhtərəm Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə inamla həyata keçirməkdədir. Mühüm geostrateji mövqe və karbohidrogen ehtiyatlarla zənginlik kimi vacib üstünlüklərə malik olan Azərbaycanı bu imkanlardan dövlətçilik maraqlarının təmin olanması prizmasından bəhərlənməsi günümüzün reallığıdır. Müstəqil daxili və xarici siyasət yeridən Azərbaycan artıq regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə və strateji tərəfdaş kimi tanınır. Bütün bunlar əminliklə söyləməyə əsas verir ki, müstəqilliyimiz əbədi və sarsılmazdır.



## Bakı Slavyan Universiteti

Bakı Slavyan Universitetində 28 May - Respublika Günü ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Asif Hacıyev Xalq Cümhuriyyətinin tarixi, cumhuriyyətin mövcud olduğu 23 ay ərzində qəbul olunan mühüm qərarlardan danışıb. Müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə xüsusi yeri olduğunu və tariximizin bu mərhələsinə siyasi qiymətin də, məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən verildiyini bildirib. Dövlət müstəqilliyimizin qorunmasını və əbədiliyini təmin edən Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasətindən danışan rektor ölkəmizin bugünkü inkişafının və beynəlxalq miqyasda artan nüfuzunun Ümummilli Liderin siyasi xəttinin davamçısı Prezident İlham Əliyevin siyasi fəaliyyəti, milli təəssübkeşliyi və qətiyyəti hesabına mümkün olduğunu vurğulayıb. Dağlıq Qarabağ münaqişəsi, düşmən ölkənin təxribatları barədə məlumat verən A.Hacıyev Azərbaycan Ordusunun qazandığı zəfərin respublikamızda aparılan, milli mənafelərə uyğun çoxşaxəli dövlətçilik siyasətinin nəticəsi olduğunu qeyd edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən tapdağı altında olan torpaqlarımızın tezliklə azad ediləcəyini, üçrəngli bayrağımızın Qarabağda dalğalanacağını əminliklə vurğulayıb.

Tərbiyə işləri üzrə prorektor Aygül Hacıyeva, beynəlxalq münasibətlər və tərcümə fakültəsinin dekanı Əsgər Əhməd, BSU-nun magistrantı Cəmilə Nəsibova Azərbaycanın beynəlxalq aləmdə dinamik inkişafı barədə danışıblar. Xalq Cümhuriyyətinin Azərbaycan tarixində saldığı izlər, Şərq aləminə gətirdiyi yeniliklərdən söz açan çıxışçılar müstəqilliyimizin əbədi olduğunu bildiriblər.

# İndiyədək Azərbaycanda 43 Tvinninq layihəsi icra edilib



***İndiyədək Azərbaycanda, ümumilikdə, 43 Tvinninq layihəsi icra edilib. Bu barədə iqtisadiyyat nazirinin müavini Sahil Babayev mayın 27-də Bakıda “Azərbaycanda institusional quruculuq” mövzusunda keçirilən konfransda bildirib.***

“İcra edilən layihələrdən 25-i uğurla tamamlanıb, 9 layihə icra mərhələsindədir, 9 layihə üzrə isə sənədlər hazırlanır. Azərbaycan dövlət qurumlarının təşəbbüsü ilə ümumilikdə, 150 TAIEX tədbiri həyata keçirilib. Eyni zamanda, dövlət qurumlarının nümayəndələri 68 çoxtərəfli TAIEX tədbirində iştirak edib. Azərbaycanda 15 SIQMA layihəsi həyata keçirilib, 2 SOCIEUX layihəsi isə icra mərhələsindədir”, - deyə nazir müavini diqqətə çatdırıb.

# Britaniyalı deputat Qarabağ atlarının məharətli çıxışına valeh olub

Böyük Britaniyanın "The House" jurnalında parlamentin İcmalar Palatasının gündəliyi bölməsində deputat Bob Bləkmənin məqaləsi dərc edilib. "Bob Bləkmən öz qlobal oyun planı ilə özünü fəda edir" adlı hesabat məqaləsində bu il Kraliça II Elizabetin 90 illik yubileyinin qeyd olunmasına həsr edilmiş bir çox əhəmiyyətli tədbirlər arasında Kral Vindzor at şousunun xüsusən seçildiyi və Bləkmənin bu şouya qatılmaqdan çox məmnun qaldığı vurğulanır: "Kraliçanın atlara olan rəğbəti hamıya yaxşı məlumdur və Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri kimi mən xüsusilə Azərbaycanın milli at cinsi olan Qarabağ atlarını seyr etməkdən zövq aldım. Onlardan biri ilk dəfə Kraliçaya 60 il bundan əvvəl hədiyyə olunub. Bu nadir cinsin vətəni Azərbaycanın Dağlıq Qarabağ regionudur. Bu region Ermənistan tərəfindən işğal edilib və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hazırda 25 ildir münaqişə ocağı kimi qalmaqda davam edir".



Commons DIARY

COMMONS DIARY

## In to bat goes Bob Blackman with his global game plan

**Wednesday 11 May**
I hosted an event for the Telugu community to welcome legendary South Indian actor Mohan Babu and his family to Parliament. A recipient of one of the highest honours in India, the Padmashree, Mohan Babu is a former politician, an educationalist and a philanthropist who has encouraged a number of young people to pursue careers in cinema during the course of his 40 year career in the arts.

**Thursday 12 May**
Head to India House for a meeting with the Indian High Commissioner, His Excellency Navtej Sarna. I visited India earlier this year, so we had much to discuss regards finding ways to strengthen the UK-India relationship.

**Friday 13 May**
Among the many landmark festivities taking place this year to mark Queen Elizabeth's 90th birthday, the Royal Windsor Horse Show certainly stands out and it was my pleasure to attend the celebrations.

Her Majesty's deep passion for all things equine is well-known and, as Chair of the APPG for Azerbaijan, I particularly enjoyed seeing the displays by Azerbaijan's national animal, the Karabakh horse, 60 years after one was first presented to the Queen. This rare breed hails from the Azerbaijani region of Nagorno-Karabakh, which has remained under Armenian illegal occupation and in a state of violent conflict for nearly a quarter of a century, in defiance of four UN Security Council resolutions.

**Tuesday 17 May**
My first EU Referendum hustings of the season, held by local Residents' Association, The Stanmore Society. I represent one of the most ethnically diverse constituencies in the country and I can happily attest that the world is rather bigger than Europe. Even Eurovision can't maintain its borders anymore! I believe we should be prioritising immigration from highly skilled workers from our Commonwealth cousins like India, Canada, Australia, South Africa and others.

Brexit is a fantastic opportunity for the UK, so I will be taking that message to hustings across my constituency in the run up to June 23rd.

**Wednesday 18 May**
I join members of the Tamil community outside the MoD for Mullivaikal Remembrance Day and speak in commemoration of all those who died during the armed conflict between the Sri Lankan Government and the Liberation Tigers of Tamil Eelam in May 2009. Mullivaikal was the name of a hospital which was destroyed with great loss of life during the genocide.

**Thursday 19 May**
The highlight of today was hosting a very enjoyable lunch with a group of visiting MPs from Bangladesh. I've had the great pleasure of visiting the country previously with the APPG as part of Project Shapla, meeting various political and social organisations in Dhaka and Sylhet, so it was a good opportunity to talk about regeneration in the region. I gave them a tour too for good measure.

**Friday 20 May**
The Lords & Commons cricket team take on Bangladeshi MPs in a 20:20 cricket match. I am delighted to report that, in an exciting contest where the Bangladesh team managed 167 runs in their 20 overs, the L&C triumphed by scoring 170-2 in only 19 overs! Cricket was the real winner and long lasting friendships firmly cemented.

**Saturday 21 May**
An eager team of volunteers took to the streets supporting the 'Vote Leave' team.

**Sunday 22 May**
I was delighted to be invited to attend the 70th anniversary of Stanmore and Canons Park Synagogue Dinner with the Chief Rabbi, Ephraim Mirvis. It was particularly interesting to listen to guest speaker Dame Stephanie Shirley, a prominent and successful philanthropist who arrived in Britain on the Kinderstransport in 1939.

**Bob Blackman** is Conservative MP for Harrow East and Chairs several APPGs with an internationalist perspective

Xatırladaq ki, bu il mayın 11-15-də London yaxınlığındakı Vindzor qəsrinin ərazisində Kraliça II Elizabetin 90 illik yubileyinə həsr olunmuş Kral Vindzor at şousunda Azərbaycanı "Qarabağ" cinsindən olan 15 atdan ibarət süvarilər komandası və Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının kollektivi təmsil edib. Tədbir günlərində Azərbaycanın mədəniyyət pavilyonu da fəaliyyət göstərib. Ölkəmizin Kral Vindzor at şousunda uğurla təmsil olunması Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) və Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) birgə təşkilatçılığı və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi nəticəsində həyata keçirilib. Məlumat üçün bildirək ki, "The House" Böyük Britaniya parlamentinin İcmalar Palatasının həftəlik siyasi jurnalıdır. Jurnal "Dobs" nəşriyyatı tərəfindən nəşr edilir. "The House" jurnalını müxtəlif partiyaları təmsil edən deputatlardan ibarət redaksiya heyəti idarə edir və parlament komissiyaları tərəfindən nəzarət funksiyası həyata keçirilir.

## Siqne Store: "Azərbaycan vətəndaşlığını qəbul edirəm"



Norveçin 20 yaşlı qadın güləşçisi Siqne Mari Fidye Store ölkəsində böyük səs-küyə səbəb olan bəyanat verərək deyib ki, Azərbaycan vətəndaşlığını qəbul etmək qərarına gəlib. SİA xəbər verir ki, Rio-de-Janeyroda keçiriləcək Olimpiya oyunlarında iştirak etmək hüququ qazanan Storenin bu cür bəyanat səsləndirməsinə səbəb olan amil onunla Norveçin güləş federasiyası arasında yaşanan qalmaqal olub. O hesab edir ki, federasiya qadın güləşinə lazımi diqqət göstərmir. "Federasiya qızları yarışlara göndərmir. Bundan əlavə, bizdən 30 min kron (Norveçin pul vahidi) tələb edirlər ki, biz federasiyanın üzvü olaq. Əgər bizə qarşı bu cür münasibət davam etsə, mən vətəndaşlığımı dəyişərək qadın güləşinə xüsusi diqqət ayıran digər ölkələrdən birinin vətəndaşlığını qəbul edəcəyəm. Bu ölkələrin içində məhz Azərbaycan üstünlük təşkil edir. Mən Norveç vətəndaşlığından imtina edib, Azərbaycan vətəndaşlığını qəbul edəcəyəm" - deyə, norveçli qadın güləşçi bəyanatla çıxış edib. Norveç mətbuatının yazdığına görə, əgər norveçli idmançı dediklərini həyata keçirərsə, Azərbaycan yığmasında yalnız Olimpiya oyunlarından sonra iştirak edə bilər. Sadəcə qalır Azərbaycan Güləş Federasiyasının bu skandinaviyalı qadın güləşçinin qərarına müsbət rəy verməsi. Siqne Mari Olimpiadada 69 kq-a qədər çəkidə iştirak etməlidir. O, ilk norveçli qadın güləşçidir ki, qadın güləşi üzrə Olimpiya oyunlarına lisenziya qazanıb. O, Olimpiya medalına layiq olduğunu düşünür. Mütəxəssislər də bəyan edirlər ki, Store Rioda uğur qazana biləcək.



# İstiqlal günü

## (28 May Respublikamızın Müstəqillik Günüdür)

Bu gün, Vətən oğlu, güldü növrağın,
Əlvan libasını geydi gülzarın.
Ucaldı baş üstə üçrəng bayrağın,
Yetişdi sonuna hər intizarın.

Çatdıq azadlığın təntənəsinə,
İmzamız imzalar içinə düşdü.
Səsimizi qatdıq bəşər səsinə,
Yurdumuz səadət mülkünə düşdü.

Üzlər sevinc tapdı, baxışlar fərəh,
Bayram ruhundadır açılan güllər.
Çaylar tək məcraya sığışmır ürək,
Bu gün fərəhindən sevinir əllər.

Dəniz şahə qalxır, təlatümlənib,
Ləpələr sahilə çəkir sığalın.
Al-əlvan geyinib qərənfillərim,
Coşaraq eşqilə bu istiqbalın.

Şəlalə istiqlal təranəsilə,
Oyadır yuxudan meşəni, dağı.
Günəş şəfəq səpir təntənəsilə,
Min bir rəngə çalır üçrəng bayrağım.

Geyib toy libasın anamız Vətən,
Gülür fərəhindən bu gün ürək, can.
Jalələr səpilir yerə göylərdən,
Gülür fərəhindən hər tərəf, hər yan,
Çiçək tək bərq vurur yurd - Azərbaycan!

***Aydın İsmayılov,***
***Təqaüdçü-mühəndis,***
***Sumqayıt şəhəri***

# BP-nin vitse-prezidenti Helmut Şuster Ali Neft Məktəbində olub

## *O dünya üzrə BP-də çalışan 60 000 əməkdaşın idarə olunmasına məsul şəxsdir*

***BP şirkətinin İnsan Resursları üzrə vitse-prezidenti Helmut Şuster Bakıya səfəri çərçivəsində Bakı Ali Neft Məktəbində (BANM) olub. O, Ali Neft Məktəbinin rəhbərliyi və tələbələri ilə görüş keçirib. BANM-dan SİA-ya verilən məlumata görə, Ali Məktəbin rektoru Elmar Qasımov qonağı salamlayaraq ona Ali Neft Məktəbi haqqında məlumat verib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə yaradılmış ali təhsil müəssisəsinin artıq ölkədə ən nüfuzlu ali təhsil ocağına çevrildiyini qonağın diqqətinə çatdırıb.***



Elmar Qasımov BANM-də neft-qaz, avtomatika və kimya sənayesi üzrə ingilisdilli, peşəkar mütəxəssislər hazırlandığını nəzərə çatdırıb. Rektor Prezident İlham Əliyevin “Biz neft kapitalını insan kapitalına çevirməlyik” şüarının artıq təsdiqini tapdığını bildirib. SOCAR-ın ən uğurlu sosial layihələrindən biri olan Ali Neft Məktəbinin yaradılmasının əsasında peşəkar mütəxəssis kimi yetişərək gələcəkdə ölkəmizi məhz xarici şirkətlərdə təmsil edə biləcək və SOCAR-ın beynəlxalq layihələrində, o cümlədən BP şirkəti kimi beynəlxalq şirkətlərdə çalışacaq kadrların hazırlanması olduğunu dedi. BP şirkəti ilə Ali Neft Məktəbinin geniş əməkdaşlıq əlaqələrindən söz açan rektor bu ali təhsil ocağının tələbələrinin hər il BP-də istehsalat təcrübəsinə cəlb olunduqlarını vurğuladı. O bildirdi ki, BANM-də elmin və təcrübənin vəhdətində verilən yüksək biliklər tələbələrə gələcəkdə istər yerli, istərsə də beynəlxalq şirkətlərdə öz karyeralarını qurmağa, əmək bazarındakı rəqabətdə önə çıxmağa stimul verir.

BP-nin vitse prezidenti, insan resursları üzrə qrupunun direktoru Helmut Şuster Ali Neft Məktəbində olmaqdan məmnunluq ifadə edərək bildirdi ki, Azərbaycana səfərinin məqsədi yerli BP komandası ilə görüşmək və regionda İnsan resurslarının fəaliyyəti ilə yaxından tanış olmaqdır. O, bu səfəri çərçivəsində yüksək tədris səviyyəsinə malik Ali Neft Məktəbində olmasından şad olduğunu dilə gətirdi. İnsan resurslarının istenilən müəssisə və şirkət üçün əhəmiyyətli olduğunu vurğulayaraq, milliləşdirilmə ilə bağlı mühüm layihələrdən biri “BP-in mütəxəssislərinin Bakı Ali Neft Məktəbinə dəstək layihəsi”ndən söz açan qonaq BP-nin milliləşdirmə strategiyası çərçivəsində dövlət qarşısında götürdüyü mühüm öhdəliyin tərkib hissəsi kimi BP AGT və BANM arasında əməkdaşlığın əhəmiyyətli dərəcədə inkişaf etdiyinə və mühəndislik sahəsində milli tələbələrin inkişafı baxımından çox uğurlu olduğuna əminlik ifadə etdi. Helmut Şuster tələbələrin suallarını cavablandırdı və o, verilən suallardan Ali Neft Məktəbinin tələbələrinin yüksək bilik və bacarıqlara malik olduğunu müşahidə etdiyini dedi. Tədbirin sonunda rektor Elmar Qasımov ona “Fəxri qonaq” diplomunu təqdim etdi. Qeyd edək ki, Helmut Şuster Beynəlxalq əlaqələr üzrə magistr dərəcəsini və iqtisadiyyat üzrə PhD dərəcəsini Vyana Universitetində almışdır və sonra öz karyerasını Henkel şirkətinin marketinq bölməsində başlamışdır. 1989-cu ildən BP şirkətində işləməyə başlayan Helmut Şuster bir sıra aparıcı vəzifələrdə çalışmışdır. O BP-nin Böyük Britaniya, ABŞ və Avropadakı nümayəndəliklərində və əsasən emal, marketinq, ticarət, qaz və enerji sahələrində çalışmışdır. Helmut Şuster BP-nin insan resursları üzrə qrupun direktoru vəzifəsini 2011-ci ilin martın 1-dən yerinə yetirir. O, dünya üzrə BP-də çalışan 60 000 əməkdaşın idarə olunmasına məsul şəxs, həmçinin BP-nin Cənubi və Şərqi Avropa üzrə qeyri-icraçı direktorudur.

# Kinematoqrafçılar İttifaqı müsabiqə ELAN EDİR

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı “YENİ NƏFƏS-II” adlı qısametrajlı ssenari müsabiqəsi elan edir.

**Məqsəd:**

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da, mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

**Şərtlər:**

· Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.

· Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.

· Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.

· Ssenari orijinal, yəni, ekranlaşdırılmamış olmalıdır.

· Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.

· Şrift Courier New, ölçü 12 tələb olunur.

· Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.

· Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.

· Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.

· Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.

· Ssenarilər 31 iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

· Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh. Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

**Qaydalar:**

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir. Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:



Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

**“YENI NƏFƏS-II”**

adlı qısametrajli ssenari müsabiqəsi elan edir.

***Məqsəd:***

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.
Müsabiqədə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

***Şərtlər:***

•Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.
•Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.
•Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.
•Ssenari orijinal, yəni ekranlaşdırılmamış olmalıdır.
•Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.
•Şrift Courier New, ölçü 12 tələb olunur.
•Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.
•Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.
•Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.
•Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.
•Ssenarilər 31iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.
•Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh.Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

***Qaydalar:***

Müsabiqənin peşakar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir.Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:
•**Qran Pri – 3000 manat** (Ekranlaşdırılması nəzərdə tutulub)
•**I yer 2000 manat**
•**II yer 1500 manat**
•**III yer 1000 manat**
Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

Əlaqə üçün:Tel: +99412 597-48-04
Fax: +99412 597-48-03
Mob:+99451 427-41-03
arki.2012@mail.ru

İnformasiya dəstəyi:

AZƏR TAC, TREND news agency www.trend.az, Day.Az, SƏS QƏZETİ, Mədəniyyət, KASPI

· Qran Pri - 3000 manat (Ekranlaşdırılması nəzərdə tutulub)

· I yer 2000 manat

· II yer 1500 manat

· III yer 1000 manat

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

***Əlaqə üçün: Tel: +99412 597-48-04***
***Fax: +99412 597-48-03***
***Mob: +99451 427-41-03***
***arki.2012@mail.ru***

İnformasiya dəstəyi:

“AZƏRTAC”, “Trend”, “Day.az”, “Səs”, “Mədəniyyət”, “Kaspi” qəzetləri

# Dövlət Miqrasiya Xidməti Şəmkirdə maarifləndirmə tədbiri keçirib

Dövlət Miqrasiya Xidməti tərəfindən Gəncə Regional Miqrasiya İdarəsinin xidmət ərazisinə aid olan Şəmkirdə vətəndaşsızlığın aradan qaldırılması, əcnəbi işçi qüvvəsindən istifadə qaydaları, qanunsuz miqrasiyaya qarşı mübarizə ilə bağlı regionda yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin, o cümlədən ictimaiyyətin, aidiyyəti dövlət qurumlarının, sahibkarların, təhsil işçilərinin nümayəndələri olan 380 nəfərin iştirakı ilə maarifləndirmə tədbiri keçirilib.

Görüşdə qeyd olunub ki, miqrasiya prosesi qloballaşan dünyanın ayrılmaz hissəsidir. Ölkəmizin geostrateji mövqeyi, respublikamızdakı sabitlik, tolerantlıq, iqtisadi inkişaf Azərbaycanı əcnəbilər üçün cəlbedici edib. Azərbaycan son illər miqrasiya baxımından mənşə ölkəsindən tranzit və təyinat ölkəsinə çevrilib. Çıxış edənlər Dövlət Miqrasiya Xidmətinin Prezident Cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu bildiriblər. Bunun nümunəsi kimi istər xidmət aparatında, istərsə də regional miqrasiya idarələrində yüksək xidməti şərait yaradılmasına, mobil idarəetmə sisteminin formalaşmasına diqqət çəkilib. Xidmətə müraciət edənlərin məmnunluğunun təmin edilməsinin



əsas prioritetlərdən olduğu vurğulanıb. Xidmətdə ictimai nəzarətə, ictimai iştirakçılığa geniş yer verildiyi və Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın fəaliyyət göstərdiyi qeyd olunub.

Dövlət Miqrasiya Xidməti tərəfindən ölkəmizdə qanunsuz yaşayan əcnəbilərin aşkarlanması, onların qanunvericiliyin tələblərinə uyğun olaraq, respublika ərazisində olma və yaşamalarının leqallaşdırılması üçün ardıcıl tədbirlərin davam etdirildiyi və bu tədbirlərin səmərəli nəticələri konkret faktlarla diqqətə çatdırılıb. Bildirilib ki, qanunsuz miqrasiyaya qarşı keçirilmiş kompleks tədbirlər nəticəsində son 5 ay ərzində Azərbaycan ərazisindən istifadə etməklə əcnəbilərin qanunsuz yollarla İran-Türkiyə-Avropa marşrutu üzrə miqrasiya kanalını təşkil edən 5 mütəşəkkil dəstə ifşa edilərək zərərsizləşdirilib. Tədbirdə o da diqqətə çatdırılıb ki, 10 gündən artıq ölkəmizdə qalmaq istəyən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər 10 gün ərzində olduğu yer üzrə qeydiyyata düşməlidirlər.

Daha sonra Gəncə Regional Miqrasiya İdarəsinin xidmət ərazisində yaşayan 46 şəxsə səyyar xidmət göstərilib. 4 nəfərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqələri, 12 nəfərə Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyən olunmasına dair arayış verilib. 9 şəxsə daimi yaşama icazəsinin verilməsi və şəxsin vətəndaşlıq mənsubiyyətinin müəyyən olunmasına dair müraciət etmələri üçün tələb olunan sənədlərin siyahısı təqdim edilib. 21 əcnəbi və vətəndaşlığı olmayan şəxsin vətəndaşlıq məsələsi ilə bağlı müraciətləri dinlənilib və onların hansı prosedurları necə həyata keçirmələri ilə bağlı izahedici söhbət aparılıb. Tədbir iştirakçıları adından Filal Məmmədov və Firuzə Heydərova maarifləndirmə tədbirinin keçirilməsinə, izahedici söhbətlərə və göstərilən xidmətlərə görə minnətdarlıqlarını bildiriblər.

**NƏZAKƏT**

## İslam dünyası Ramazan ayını eyni tarixdə qeyd etmək üçün bir araya gəlir

Türkiyə Cümhuriyyəti Diyanət İşləri Başqanlığı, Avropa Fətva və Araşdırma Məclisi, Boğaziçi Universiteti Kandilli Rəsədxanası və İslam Hilal Gözlem Projesinin birgə təşkilatçılığı ilə 28-30 may tarixlərində İstanbulda Beynəlxalq Hicri Təqvim Birliyi Konqresi keçiriləcəkdir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən "SƏS" qəzetinə verilən məlumata görə, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak edəcəyi Konqresə müxtəlif ölkələrdən islam alimləri, dövlət rəsmiləri qatılacaqlar. Konqresin keçirilməsində əsas məqsəd vahid hicri təqvim layihəsinin, bütün müsəlman dünyasının Ramazan ayına eyni vaxtda başlaması və Ramazan bayramını eyni gündə qeyd etməsi məsələlərinin müzakirəsidir. 50 ölkədən 171 nümayəndənin iştirakı gözlənilən Konqresdə Azərbaycanı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Salman Musayev təmsil edəcəklər.

**N.ƏLƏDDİNQIZI**



# AMİP-də nə baş verir?

## Partiyanın sədr böhranı böyüyür

*2015-ci ilin parlament seçkiləri ərəfəsində Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədrliyindən gözlənilməz şəkildə istefa verən Yusif Bağırzadənin ardınca adıçəkilən siyasi təşkilat ciddi böhranla üz-üzə qalıb. Artıq yarım ildir ki, sədrsiz qalan AMİP, eyni zamanda yeni sədrin seçilməsində də problemlər yaşayır. Buna qədər bir neçə dəfə AMİP-in qurultayının keçiriləcəyini bəyan edən funksionerlər hələ ki, təşkilatın ali tədbirini keçirməkdə çətinlik çəkməkdədirlər.*



### Etibar Məmmədovun hadisələrə öz dəyərləndirməsini etməsi vacibliyi labüdləşsə də

Maraqlı məqamlardan biri də partiyanın ilk sədri və hazırkı lideri Etibar Məmmədovun sözügedən vəziyyətə müdaxilə etməməsidir. Çünki partiyada vəziyyət o həddə qədər dalana dirənib ki, istər-istəməz onun yaradıcısı olan E.Məmmədovun hadisələrə öz dəyərləndirməsini etməsi vacibliyi labüdləşir. Lakin buna rəğmən, o, hələ də susqunluq sərgiləməklə partiyadaxili vəziyyəti öz axarına buraxdığını sərgiləməkdədir. Düzdür, müəyyən vaxtlarda AMİP-in aparıcı yetkililəri siyasi təşkilatın rayon təşkilatlarında konfransların keçirildiyini desələr də, ortada real nəticənin olmaması bəzi məqamları yenidən üzə çıxarmaqdadır.

### Üç əsas iddialı var

Bəllidir ki, AMİP sədrliyinə iddialılar arasında əsasən, baş katib Arzuxan Əlizadə, partiyanın mərkəzi şurasının təmsilçisi Əli Orucov və təşkilat sədrinin xarici əlaqələr üzə müavini Elşən Mustafayevdir. Adıçəkilən hər üç şəxs uzun illərdir ki, bu partiyada təmsil olunmaqla yanaşı, onların hər biri, bilavasitə lider E.Məmmədova xüsusi yaxınlıqları ilə də seçilirlər. Hazırda AMİP-ə qeyri-rəsmi rəhbərliyi A.Əlizadə etsə də, digər iki şəxs də idarəçilik funksiyası istiqamətində hərəkət etməkdədirlər. Onlar Y.Bağırzadənin istefasından sonra mətbuat vasitəsilə verdikləri açıqlamalarında aşkar olmasa da, sətiraltı şəkildə AMİP-in sədr postu uğrunda iddia irəli sürəcəklərini gizlətməyiblər. Artıq onlar arasında "niyə də mən olmayım?" düşüncəsi formalaşıb ki, bu amilin özü də müəyyən mənada adıçəkilən şəxslər arasında gizli mübarizənin aparıldığını göstərməkdədir.

### Hazırkı iddialıların isə partiyaya xərcləmək istiqamətində demək olar ki, maliyyə resursları yoxdur

Daha bir nüans isə AMİP-də maliyyələşmə məsələsidir. Bildiyimiz kimi, istənilən siyasi təşkilatın ayaqda saxlanılması, müxtəlif proseslərə sirayət etməsi üçün maliyyə resursunun olması vacibdir. Y.Bağırzadədə bu imkanlar var idi. Çünki onun sədrliyi dövründə AMİP bir neçə beynəlxalq tədbirlərdə iştirak etmiş, partiyanın fəaliyyətində müəyyən nəzərəçarpacaq məqamlar gözə dəymişdi. Söz yox ki, burada siyasi fəaliyyətdən əlavə biznes fəaliyyətinin olması da sirr deyil. Məhz həmin biznesdən əldə edilən gəlirlər vasitəsilə sabiq sədr AMİP-in siyasi arenadan silinməsinə imkan vermirdi. İndi isə bu, baş vermir.

### AMİP nəinki mərkəzi aparatı, heç aşağı strukturları belə idarə edə bilməyəcək

Hazırkı iddialıların isə partiyaya xərcləmək istiqamətində demək olar ki, maliyyə resursları yoxdur. Onların hər biri yaxşı bilirlər ki, AMİP sədrinin kürsüsündə əyləşəcək siyasinin maliyyə qaynaqlarının olması şərtdir. Maliyyə resursu olmadığı halda, AMİP nəinki mərkəzi aparatını, heç aşağı strukturlarını belə idarə edə bilməyəcək. Bu baxımdan, AMİP-in qurultayı hər dəfə təxirə salınmaqla ayrı vaxtlara təyin olunur. Ara məsafəsində isə sədrliyə iddialılar maliyyə axtarışına çıxırlar. Amma bu "kəşfiyyatlar" hələ ki, uğursuzluqla nəticələnir. Artıq belə görünür ki, son anda AMİP lideri E.Məmmədov bu məsələyə müdaxilə etməli olacaq.

### Etibar Məmmədov ya sədrliyə qayıtmalı, ya da üç iddialı arasında qəti seçim etməlidir

Onun daha öncələr bir daha partiyaya sədr kimi qayıtmayacağı barədə dediyi fikirlər geri götürülə və Məmmədov yenidən sədr postuna qayıda bilər. Yaxud E.Məmmədov son anda yuxarıda adları çəkilən üç şəxs arasında yekun seçim edərək, onlardan birinə maliyyə yardımı göstərib, sədr kürsüsünə əyləşdirə bilər. Amma bu hal yaşanarsa, digər iki iddialı şəxsin partiyada qiyam qaldıraraq, özlərinin sədr olma haqlarını müdafiə etmələri gözlənilə bilər. Bu hal isə AMİP-ə heç də yaxşı gələcək vəd edə bilməz. Dayaqları zəifləmiş partiya, hətta maliyyə resursları təmin olunsa belə, bundan artığına dözə bilməz və parçalanar. Çox yəqin ki, bir dəfə parçalanaraq VİP-ə (Vətəndaş və İnkişaf Partiyası, sədr Əli Əliyevdir-R.R.) ayrılan təşkilat bu dəfə də eyni aqibətini yaşamalı olacaq. Hər halda, qurultayın təxirə salınması da belə qənaətə gəlməyə zəmin yaratmış olur.

**Rövşən RƏSULOV**

# NATO-dan Azərbaycan və Ermənistana çağırış

NATO Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlıdır və tərəfləri sülh yolu ilə nizamlanma üzrə səyləri davam etdirməyə çağırır. Bunu Trend-ə NATO-nun mətbuat xidmətindən deyiblər. Mətbuat xidmətindən bildiriblər ki, münaqişələrin sülh yolu ilə nizamlanması NATO-nun və hərbi əməkdaşlıq proqramında iştirak edən bütün tərəfdaş dövlətlərin əsas məqsədidir. Həmçinin qeyd olunub ki, Alyansın ATƏT-in Minsk Qrupu çərçivəsində keçirilən danışıqlar prosesi ilə birbaşa əlaqəsi yoxdur.

# Sərdar Cəlaloğlu: "AXCP-Müsavat arasında ziddiyyətlər davam edir"



"AXCP ilə Müsavat arasında ziddiyyətlər hələ 1988-ci ildən davam edir. Ümumiyyətlə, bu iki qüvvə arasında ziddiyyət həmişə olub və barışmaz hal alıb". Bunu SİA-ya Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu Tofiq Yaqublunun AXCP və Müsavatı barışdırmaq təşəbbüsünə münasibət bildirərkən deyib. ADP sədrinin sözlərinə görə, zaman-zaman bu təşkilatlar bir-birinə qarşı mübarizə aparıblar: "Təbii ki, bu gündə həmin ziddiyyətlər həll olunmamış qalır. Bu baxımdan AXCP və Müsavat bir araya gəlsə də belə onlar arasında ziddiyyətlər həll olunmadığı üçün həmin proseslər daha qabarıq şəkildə özünü göstərəcək. Bu mənada düşünürəm ki, ziddiyyətlər həll olmadan sözügedən təşkilatların bir araya gəlməsi ümumi şeyin xeyrinə olmaz. Yəni bu təşəbbüs, hətta baş tutsa belə uzun müddətli olmayacaq. Hətta məndə olan məlumata görə AXCP bu təşəbbüsə o qədər də isti baxmır".

# Bayram günü 33 dərəcə isti olacaq



Bu gün Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən SİA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında mayın 28-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Gündüz mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 16-19, gündüz 25-30, Bakıda gecə 16-18, gündüz 27-29 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 50-60 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında mayın 28-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin axşam və gecə bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-20, gündüz 28-33, dağlarda gecə 8-13, gündüz 20-25 dərəcə isti olacaq. Yaxın 2 gün ərzində Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün nisbətən əlverişlidir.

# Dünya Bankı "Azərpoçt" MMC-nin maliyyə xidmətləri göstərməsini mühüm islahat kimi dəyərləndirir




Baza maliyyə xidmətlərinin milli poçt operatoru "Azərpoçt" vasitəsilə həyata keçirilməsi bir neçə il bundan öncə başlamış mühüm islahatlardan biridir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu fikir Dünya Bankının "Azərbaycanda maliyyə potensialı və inklüzivliyinin gücləndirilməsi hesabatı"nda yer alıb. Ölkə ərazisində 1600 filialdan artıq şəbəkəsi, bank və digər maliyyə institutlarının tərəfdaşlığı ilə "Azərpoçt"un ölkədə maliyyə inklüzivliyi və əlyetərliyinin artırılmasına əhəmiyyətli dərəcədə töhfə verə biləcəyi də hesabatda vurğulanıb. Qeyd edək ki, həmin hesabat Azərbaycan Mərkəzi Bankının müraciəti əsasında İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) tərəfindən maliyyələşdirilən "İstehlakçıların hüquqlarının müdafiəsi və maliyyə savadlılığı" texniki yardım layihəsi çərçivəsində hazırlanıb.

# Nardaranda özünü axund kimi təqdim edən şəxsə hökm oxundu



Dünən Sabunçu rayon Məhkəməsində Nardaran hadisələrində təqsirləndirilərək həbs edilən, özünü Nardarandakı Rəhimə Xanım Ziyarətgahının Hüseyniyyə Məscidinin axundu kimi təqdim edən Nuhbala Rəhimovun məhkəməsi başa çatıb.Trend-in məlumatına görə, prosesdə iş üzrə təqsirləndirilən şəxsə hökm oxunub. Məhkəmənin hökmü ilə N. Rəhimov 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Xatırladaq ki, Nuhbala Rəhimov ötən ilin noyabrında Nardaran qəsəbəsində saxlanılıb. O qanunsuz silah saxlamaqda təqsirləndirilərək həbs edilib.

# Bazar iqtisadiyyatı şəraitində sahibkarların iqtisadi fəaliyyət hüququ və bu sahədə cinayətə görə məsuliyyət

***Cinayət qanunvericiliyinin inkişaf mərhələlərinin və müvafiq sahəyə dair nəzəri fikirlərin qarşılıqlı təhlili göstərir ki, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərlə bağlı qanunvericilik normalarının yaradılmasının əsas məqsədi iqtisadi həyatın müxtəlif sahələrinin cinayətkar qəsdlərdən qorunması olmuşdur.***

Hüquq üzrə fəlsəfə doktoru Şəhla Həsənova yazır: "Azərbaycan Respublikasının göstərilən sahəyə dair cinayət qanunvericiliyi Müstəqil Dövlətlər Birliyi üzvü olan digər ölkələrdə də olduğu kimi, eyni baza, yəni inqilabaqədərki Rusiya İmperiyası və ondan sonra yaranmış Sovet İttifaqı qanunvericiliyi üzərində qurulmuş, vaxtilə həmin dövlətlərdə mövcud olmuş cəmiyyətin siyasi və iqtisadi vəziyyətinə uyğun olan inkişaf mərhələləri keçmişdir. Odur ki, siyasi və iqtisadi vəziyyətin dəyişməsi bu və ya digər əməlin kriminallaşmasına, yaxud dekriminallaşmasına səbəb olmuşdur.

SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş keçmiş sovet respublikalarında da, demək olar ki, əsasən belə yanaşma saxlanılmış, iqtisadi fəaliyyət sahəsinə dair cinayət qanunvericiliyi normaları yeni yaranmış müstəqil dövlətlərdə mövcud olan siyasi və iqtisadi vəziyyətə uyğunlaşdırılmış, formalaşmaqda olan yeni ictimai münasibətlərin qorunmasına istiqamətləndirilmişdir".

Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin "İqtisadi fəaliyyət sahəsində olan cinayətlər" adlanan 24-cü fəslinin normalarının formalaşdırılmasında da analoji yanaşma tətbiq olunmuşdur.

Göstərilənlərə və mövcud nəzəri fikirlərə əsaslanaraq, deyə bilərik ki, iqtisadi fəaliyyət sahəsində olan cinayətlər - bazar iqtisadiyyatına əsaslanan cəmiyyətdə iqtisadi fəaliyyət sahəsində yaranan və dövlət tərəfindən qorunan ictimai münasibətlər sisteminə zərər vuran, yaxud real zərərvurma şəraitini yaradan təqsirli olaraq törədilmiş hüquqazidd ictimai təhlükəli əməllərdir. Həmin cinayətlərin ictimai təhlükəliliyi mülkiyyətçinin, kommersantın, istehlakçının və bazar münasibətlərinin digər iştirakçısının, bir sözlə, iqtisadi fəaliyyət subyektlərinin qanuni maraqlarına qəsd etmək, qanuni şəxsi təşəbbüsə və vicdanlı rəqabətə maneçilimk törətmək, sahibkarlığın və qanunla qadağan olunmayan digər iqtisadi fəaliyyətin tənzimlənməsi sahəsində dövlət maraqlarının pozulması formasında təzahür etməsi ilə səciyyələnir.

İqtisadi fəaliyyət sahəsində törədilə bilən və aktuallığına görə kriminallaşdırılması zəruri olan əməllər, demək olar ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 24-cü fəsli ilə, əsasən əhatə olunur. Həmin fəsildə nəzərdə tutulan normaların əksəriyyəti iqtisadiyyatın bugünkü inkişaf səviyyəsinə uyğun olmaqla, beynəlxalq-hüquqi standartlara cavab verir. Ancaq Azərbaycan SSR-in 1960-cı il Cinayət Məcəlləsinin 154-cü maddəsində nəzərdə tutulmuş alıcıları aldatma (1927-ci il Cinayət Məcəlləsinin 1393-cü maddəsi "çəkidə və ölçüdə aldatmaq") əməlinin dekriminallaşdırılması və Azərbaycan Respublikasının 2000-ci il Cinayət Məcəlləsində nəzərdə tutulmaması haqlı sual doğurur. Belə ki, göstərilən əməl nəinki öz aktuallığını itirməmiş, əksinə müstəqillik dövründə daha da geniş yayılmışdır. Keçirilmiş anonim sorğunun nəticələri də bunu təsdiq edir. Sorğuda iştirak etmiş 217 nəfərdən 189-u (87 %) "Onun hüquqlarının pozulması və qanuni maraqlarına ziyan vurulması ilə nəticələnən iqtisadi fəaliyyət sahəsinə aid edilən hansı əməli göstərə bilərsən" sualına bazarlarda, marketlərdə və digər ticarət müəssisələrində aldadıldığını bildirmişdir.

Müxtəlif ticarət obyektlərində keçirilmiş monitorinqin nəticələri də alıcıların çəkidə aldadılması faktının geniş yayıldığını təsdiq edir.

Keçirilmiş digər anonim sorğuda iştirak etmiş 172 nəfərdən 139-u (81 %) "İqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərlə mübarizənin zəif aparılmasının səbəbini nədə görürsünüz" sualına iqtisadi fəaliyyət sahəsində törədilən əməllərlə mübarizəni aparacaq xüsusi bir xidmətin olmaması ilə izah etmişdir.

MDB üzvü olan dövlətlərin daxili işlər nazirliklərinin strukturlarının müqayisəli təhlili göstərir ki, Ukrayna, Rusiya, Belarus, Moldova və s. daxili işlər nazirliklərinin strukturlarında iqtisadi cinayətkarlıqla mübarizəni həyata keçirən xidmət mövcuddur. Odur ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tərkibində belə xidmətin nəzərdə tutulmaması səbəbini başa düşmək çətindir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 215.5-ci maddəsinə uyğun olaraq, "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin 25 avqust 2000-ci il tarixli 387 saylı Fərmanına əsasən, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 194, 197-201, 204, 205, 213-2, 213-3-cü maddələrində nəzərdə tutulan cinayətlərin ibtidai istintaqı Azərbaycan Respublikasının daxili işlər (polis) orqanlarına həvalə olunmuşdur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qanunsuz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə məsuliyyəti müəyyən edən 192-ci maddəsinin dispozisiyasında, "həmçinin, lisenziyalaşdırılma şərtlərinin; pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə" sözlərinin işlədilməsi sahibkarlıq fəaliyyəti subyektlərinin işinə əsassız müdaxilələrin edilməsinə və maneələr törədilməsinə şərait yaradır, dispozisiyanın mətnini lüzumsuz olaraq mürəkkəbləşdirir. Qanunvericilik texnikası baxımından da, bu, yolverilməz sayılmalıdır. Belə ki, qanunsuz sahibkarlıq birbaşa qəsdlə səciyyələnir, lakin lisenziyalaşdırılma şərtlərinin pozulması, yaxud xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadəetmə təsadüf nəticəsində, yəni ehtiyatsızlıqdan da baş verə bilər. Bundan başqa, göstərilən ifadə qeyri-müəyyən xarakter daşıyır, konkret olaraq hansı şərtlərin pozulmasından, yaxud mülki dövriyyəsi məhdudlaşdırılmış hansı əşyalardan bəhs olunduğu bilinmir ki, bu da dispozisiyanın subyektiv yanaşma baxımından, genişləndirmə istiqamətində şərh edilməsinə imkan verir.

Ş.Həsənova göstərir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kreditor borclarını ödəməkdən qəsdən yayınmaya görə məsuliyyəti nəzərdə tutan 196-cı maddəsinin dispozisiyası olduqca qüsurludur. Təşkilat rəhbərinin və ya vətəndaşın kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarına əsasən, qəsdən yayınması absurd xarakteri daşıyır. Yəqin ki, burada müvafiq məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra təşkilat rəhbərinin və ya vətəndaşın kreditor borclarını, yaxud qiymətli kağızları ödəməkdən qəsdən yayınmasına görə məsuliyyət nəzərdə tutulur. Lakin seçilmiş dil üslubu qüsurlu olduğu üçün mətn həmin mənanı əks etdirmir. Bununla yanaşı, dispozisiyadakı "qəsdən yayınma" sözləri konkret hərəkəti ifadə etmir, onun nədən ibarət olduğu dəqiqləşdirilmir, sərbəst qiymətləndirmə xarakteri daşıyır ki, bu da subyektiv yanaşmaya yol açır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini hazırlama, əldə etmə və ya satmaya görə məsuliyyəti müəyyən edən 205-ci maddəsinin dispozisiyasında "başqa ödəniş sənədlərini" sözləri işlədilir, hansı sənədlərdən bəhs olunduğu isə göstərilmir ki, bu da, öz növbəsində, qeyri-müəyyənlik yaradır. Dispozisiyada olan "habelə əldə etmə" əlaməti konkret deyil. Belə ki, kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərinin əldə edilməsinin məqsədi dəqiqləşdirilmir.

Göstərilən qüsurların aradan qaldırılması məqsədilə aşağıda göstərilən tədbirlərin görülməsi təklif olunur:

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə alıcıları çəkidə, ölçüdə və hesabda aldatmaya görə məsuliyyəti müəyyən edən maddə əlavə edilsin;
- İqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərlə mübarizənin aparılmasının həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tərkibində müvafiq xidmət yaradılsın;
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 190-cı maddəsinin dispozisiyasından "kommersiya təşkilatının" sözləri "hüquqi şəxsin" sözləri ilə əvəz edilsin və "təşkilati-hüquqi və ya mülkiyyət formasından asılı olmayaraq" sözləri dispozisiyadan çıxarılsın;
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-ci maddəsinin dispozisiyasından, "həmçinin, lisenziyalaşdırılma şərtlərinin pozulması ilə" sözləri dispozisiyadan çıxarılsın;
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 196-cı maddəsinin dispozisiyasında "qəsdən yayınması" sözlərinin kəsb etdiyi məna şərh olunsun, yəni qəsdən yayınma hərəkətinin nədən ibarət olduğu izah edilsin və "xeyli miqdarda" sözləri "külli miqdarda" sözləri ilə əvəz olunsun;
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 205-ci maddəsinin dispozisiyasında "başqa ödəniş sənədlərini" dedikdə, hansı sənədlərdən bəhs olunduğu konkretləşdirilsin, yəni həmin sənədlərin tam siyahısı verilsin, "habelə, əldə etmə" sözləri "istifadə etmə və ya satma məqsədilə əldə etmə" sözləri ilə əvəz edilsin.

Zənnimizcə, göstərilən təkliflərin həyata keçirilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 24-cü fəslinin normalarının təkmilləşdirilməsinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlərlə mübarizənin müvafiq tələblər səviyyəsində aparılmasına xidmət edəcəkdir.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Son səhifə 28 may


## Yaponlar yatmırlar, "inemuri" edirlər

Yaponların ilginc həyat tərzlərinin daha bir detalı üzə çıxıb. BBC-in xəbərinə görə, yaponlarda gündəlik həyat çox dinamik və gərgin olduğu üçün yatmağa vaxtları qalmır. Bu səbəbdən də onlar adına "inemuri" deyilən davranışa xüsusi fikir verirlər.



"İnemuri" ictimai yerlərdə, qatarlarda, iş iclaslarında, məktəbdə və digər yerlərdə yuxulama mənasına gəlir. Qadın, kişi, uşaq harada olur-olsun istədikləri vaxt bir az mürgüləyirlər. Bütün Yaponiyada bu davranış olduqca normal qarşılanır. Buna səbəb isə onların "inemuri"ni gecə yuxusu və ya günorta istirahət vaxtı olan yuxu kimi qəbul etməmələridir. "İnemuri"nin tərcüməsi "orda olmaq" və yatmaq mənalarında işlənir. Yəni harada olursunuzsa olun vəziyyətə təsir etmirsinizsə, "İnemuri"nin problemi yoxdur - bir az da olsa yuxulaya bilərsiniz.

## Obama 4.3 milyon dollarlıq evdə yaşayacaq

ABŞ prezidenti Barak Obama prezidentlik vəzifəsini bitirəndən sonra Vaşinqtonda yaşamağa davam edəcək. Obama 9 yataq otağı, bir idman otağı və 8 hamamı olan, 4.3 milyon dollar dəyərində bir ev kirayələyib.



ABŞ prezidenti bu payız keçiriləcək seçkilərdən sonra kreslosunu yeni prezidentə verəcək. 8.200 kvadrat metr sahəsi olan torpağın üzərində qurulmuş olan evi isə prezident Bill Klintonun mətbuat müşaviri olan Joe Lockhartdan alıb. 1928-ci ildə inşa edilən evin üst mərtəbəsində Obamanın iş otağı yer alır. Obamanın belə bir bahalı qərar verməsinin səbəbi isə 14 yaşlı qızı Saşadır. Belə ki, əsas məsələ Saşanın lisey təhsilinə mane olmamaqdır. Obama qızı Saşanın təhsil aldığı Sidvell Friends Schoola illik olaraq 36 min 360 dollar ödəyir. Obama müsahibələrinin birində lisey təhsili alan birinin başqa bir məktəbə köçürülməsinin çətin olduğunu demişdi.

## 80 il öncə atdığı qızı ilə tanış oldu

ABŞ-da 1933-cü ildə qızından imtina edən qadın aradan 80 il keçəndən sonra qızı ilə görüşüb. 83 yaşlı Dorien Hamman 99 yaşlı Eylen Vaqnerə zəng edərək deyib: "Salam, ana". Viskonsin ştatının sakini olan Vaqner 16 yaşında təcavüz nəticəsində hamilə qalıb. O, qızını dünyaya gətirib və onu bir ailəyə verib.



Ana-balanın görüşməsinə isə Hammanın gəlini səbəb olub. O, qayınanasının övladlığa verilməsi ilə bağlı sənədləri araşdıranda onun anasının kimliyini və əlaqə nömrələrini internet vasitəsilə tapıb üzə çıxarıb. Vaqner və Hamman bir neçə dəfə telefonla danışıblar və 2016-cı ilin aprelində görüşüblər. Qadının bioloji anası ona baş verənləri belə izah edib: "Həmin illərdə belə bir hadisənin yaşanması rəsmən rəzillik idi". Hamman isə deyib ki, bu yaşında belə anasının sağ olması onunçün təəccüblü hadisədir. Vaqner isə heç zaman ərinə və oğlanlarına təcavüzə uğraması və birinci uşağının olması barədə heç nə deməyib. Onun əri 2006-cı ildə dünyasını dəyişib. Amma qızının zəngindən sonra o, uşaqlarına öz keçmişi barədə danışmaq zorunda qalıb: "Mən düşünürdüm ki, belə bir gün heç vaxt gəlməyəcək və mən öz qızımı tanıya bilməyəcəm. Amma, hətta yuxular da bir gün gerçəkləşə bilir". Bu mayda ana-bala birgə Analar Gününü qeyd ediblər. Bundan başqa, Eylen qızını mayın 30-da keçiriləcək 100 illik yubileyinə də dəvət edib. Hamman ad gününə ərini, oğlunu, gəlinini və nəvəsini gətirəcək.




## Mourinyo rəsmən "Mançester Yunayted"də!

Çoxdan gözlənilən daha bir futbol hadisəsi nəhayət ki, artıq reallaşıb. Söhbət portuqaliyalı futbol mütəxəssisi olan Joze Mourinyonun rəsmən "Mançester Yunayted"in baş məşqçisi təyin olunmasından gedir. J.Mourinyo artıq "qırmızı şeytanlar"ın sükanı arxasına keçib. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Bundan əvvəl digər ingilis futbol klubu olan "Çelsi"ni çalışdıran portuqaliyalı futbol mütəxəssisi, yeni mövsümdən çalışdıracağı "qırmızı şeytanlar"la 3 illik müqavilə imzalayıb. O, bu postda hollandiyalı çalışdırıcı Lui van Qalı əvəzləyib. Qeyd edək ki, məşqçilik fəaliyyəti ərzində "Porto", "İnter" və "Madrid "Real"ı kimi klubları çalışdırmış Mourinyonun əvvəlki iş yeri "Çelsi" olub.

## Türkiyə kubokunu "Qalatasaray" qazandı!

Futbol üzrə Türkiyə kubokunun final oyunu keçirilib. Apasport.az saytının məlumatına görə, həlledici görüşdə İstanbul derbisi baş tutub. Türkiyə Superliqasında çempionluğu son anda əldən verən "Fənərbaxça" ölkə kubokunda da məğlubiyyətə üzülüb. Bərbad keçən mövsümdən sonra ölkə kuboku vasitəsilə Avroliqaya vəsiqə qazanmaq, bununla da UEFA tərəfindən verilən cəzanı məhz bu mövsüm çəkmək istəyən "Qalatasaray" minimalhesablı qələbəyə sevinərək kuboku başı üzərinə qaldırıb. Matçdakı yeganə qolun müəllifi almaniyalı Lukas Podolski olub. O, künc zərbəsindən sonra başla fərqlənib. Beləliklə, "Fənərbaxça" üzərində qələbə qazanan "Qalatasaray", ardıcıl 3-cü dəfə kuboku başı üzərinə qaldırıb.





## Azərbaycan döyüşçüsü Nəriman Abbasov növbəti qələbəsini qazanıb

Azərbaycanın və "Qəbələ" idman klubunun döyüşçüsü Nəriman Abbasov növbəti qələbəsini qazanıb. Klubdan AZƏRTAC-a bildiriblər ki, təmsilçimiz Moskvada keçirilən qarışıq döyüş növləri (MMA) üzrə "Fight Nights Global 48" turnirində uğurla çıxış edib. O, "Qran-pri Fight Nights" yarışının birinci yarımfinalında İslam Beqidov ilə üz-üzə gəlib. 70,3 kiloqram çəki dərəcəsində baş tutan döyüşdə idmançımız rusiyalı rəqibini məğlub edib. N.Abbasov 3 raund davam edən gərgin görüşdə hakimlərin yekdil qərarı ilə qalib gəlib. Bu qələbə ilə təmsilçimiz Qran-prinin finalına vəsiqə qazanıb. Bu, onun MMA-da keçirdiyi 14-cü döyüşdə qazandığı 12-ci qələbədir. Xatırladaq ki, idmançımız yarışın 1/4 final mərhələsində digər rusiyalı Nikolay Qaponovu məğlub etmişdi.

## "Barselona"da 5 illik müqavilə



"Barselona" yarımmüdafiəçisi Serxio Busketslə müqavilənin müddətini uzadıb. Qol.az-ın klubun rəsmi saytına istinadən verdiyi məlumata görə, 27 yaşlı futbolçu ilə 5 illik müqavilə imzalanıb. Klub rəhbərliyi 2021-ci ilə qədər Kataloniya təmsilçisinin şərəfini qoruyacaq Busketsin təzminat qiymətini də yüksəldib. İspaniya millisinin üzvünü transfer etmək istəyən klublar 200 milyon avrosundan keçməli olacaq. Qeyd edək ki, "Barselona"nın yetirməsi olan Busketslə İngiltərənin "Mançester Siti" klubu yaxından maraqlanır.

## Ruslan Abışov "Qəbələ"dən getdi



Milli komandamızın üzvü Ruslan Abışov "Qəbələ"dən ayrılıb. Bu barədə Qol.az-a futbolçunun qardaşı Sərxan Abışov məlumat verib. Əyalət təmsilçisi ilə müqaviləsi başa çatan 29 yaşlı müdafiəçi komandanı tərk etməyə qərar verib. Hazırda Avstriyada milli komandamızın düşərgəsində olan futbolçu paytaxt klublarının birində çıxış etmək fikrindədir. Onun adı "İnter"lə hallanır. Xatırladaq ki, 2014-cü ildə "Rubin"dən "Qəbələ"yə transfer olunan Abışov bu komandanın heyətində 44 oyun keçirib və 3 qol vurub.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**